# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 51 (3289) Cümə axşamı / 4-5 iyun 2020-ci il Qiyməti 40 qəpik


## Qətl

■ **İyunun 3-də gecə saat 01 radələrində Biləsuvar şəhəri ərazisində 1984-cü il təvəllüdlü şəhər sakini Rəşad Rzayevin bıçaqlanaraq öldürülməsi barədə daxil olan məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə dərhal hadisə yerinə və meyitə baxış keçirilib.** Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. Biləsuvar Rayon Prokurorluğunun hafta.az-a daxil olan məlumatında bildirilir ki, istintaqla hadisənin zərərçəkmişin tanışı 1992-ci il təvəllüdlü Fərid Hətəmov tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı törədilməsinə əsaslı şübhələr müəyyənləşdirilib. Fərid Hətəmov Cinayət Məcəlləsinin həmin maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Qəza

■ **Bakı-Sumqayıt yolunun Abşeron rayon ərazisində yol-nəqliyyat hadisəsi baş verib.** Hadisə Bakı-Sumqayıt yolunun Xırdalan dairəsi yaxınlığından keçən hissəsində qeydə alınıb. TIR yük maşını ilə "Hyundai" markalı avtomobil toqquşub. Rayon Polis İdarəsindən verilən məlumata görə, qəza nəticəsində ölən və yaralanan olmayıb. Hadisə Bakı-Sumqayıt yolunun Xırdalan dairəsindən "Ekologiya postu"na qədər olan hissəsində tıxacın yaranmasına səbəb olub. Yol polisinin müdaxiləsi ilə hərəkət bərpa olunub. Faktla bağlı araşdırma aparılır.

■ **İyunun 3-də Xaçmaz şəhərində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Qəza şəhərin Atatürk küçəsində qeydə alınıb.** Xaçmaz rayon sakini, 1966-cı il təvəllüdlü Əli Bəşirova idarə etdiyi "Mercedes" markalı yük maşını ilə 1965-ci il təvəllüdlü Ələsgərova Xanım Ələnur qızını vurub. Qadın aldığı xəsarətlərdən ölüb. Hadisəni törətməkdə şübhəli bilinən sürücü saxlanılıb. Faktla bağlı Xaçmaz rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.

■ **Bakıda daha bir yol qəzası baş verib. Hafta.az-ın məlumatına görə, hadisə paytaxtın Xətai rayonu, Nobel prospektində olub.** "VAZ 21 07" markalı minik avtomobili yol hərəkəti qaydalarını kobud pozaraq prospektdə qarşı hərəkət zolağına çıxıb. Yolda kobud qayda pozuntularına yol verən avtomobil "Mercedes"lə toqquşub. "VAZ 2107" markalı avtomobilin sürücüsü maşından düşərək hadisə yerindən qaçıb. Araşdırmalar zamanı məlum olub ki, "VAZ 2107" həmin sürücüyə məxsus olmayıb və o avtomobili oğurlayıb. Paytaxt ərazisində yol polisinin "Saxla!"" əmrinə tabe olmayan sürücü qarşı hərəkət yoluna keçərək ərazidən uzaqlaşmaq istəsə də qəza törədib. Hadisə zamanı yol polisinin avtomobili də zədələnib. Faktla bağlı araşdırma aparılır.

# Həftəsonu hərəkət tam məhdudlaşdırılacaq



***Son günlər yoluxma dərəcəsi artır, sağalanların sayı yoluxanların sayından xeyli geri qalır. Buna səbəb vətəndaşların məsuliyyətsizliyidir. Karantin rejiminin yumşaldılması dayandırılır və yenidən məhdudlaşdırılma aktivləşdirilir. Belə ki, cümə günü axşamdan bazar ertəsi səhərə kimi tam qapadılma tətbiq olunacaq. İctimai və fərdi nəqliyyat hərəkəti, küçəyəçıxma, iş rejimi məhdudlaşdırılacaq, mağazalar qapadılacaq. Bir sözlə, tam qapalı rejim yaradılacaq.***

Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

O qeyd edib ki, sabah bununla bağlı Operativ Qərargahın rəhbəri, Baş Nazir Əli Əsədovun müraciəti olacaq. Bu məsələlər detallı şəkildə elan ediləcək. Sonra isə əhaliyə bununla bağlı tam məlumat veriləcək.

Bu həftədən başlayaraq bazar günü səhər saatlarınadək narıncı zona adlandırılan Bakı, Sumqayıt, Gəncə şəhərlərində və Abşeron rayonunda küçəyə çıxmaq qadağasının tətbiq olunması gözlənilir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

### Açıqlama

Onun sözlərinə görə, yoluxma intensivliyi yüksək olduğuna görə, qarşıdakı bir və ya iki ay ərzində həftənin iki günü, bəlkə də üç günü ərzində vətəndaşların küçəyə çıxması, nəqliyyat vasitələrinin hərəkəti və iş rejimi məhdudlaşdırılacaq, mağazalar bağlanacaq. "Həftəsonları kütləvi informasiya vasitələrinin işləməsi məsələsi hələlik bəlli deyil", - Ramin Bayramlı bildirib. Onun sözlərinə görə, bu məsələ Baş Nazirin çıxışından sonra bilinəcək: "Ola bilsin ki, məhdudiyyətlər Kütləvi İnformasiya Vasitələrinə də şamil ediləcək, mümkündür ki, məhdud sayda televiziya əməkdaşına işləməyə icazə veriləcək". Bu həftə başlayandan indiyədək ciddi say artımı ilə qarşı-qarşıyayıq. Çox təəssüf ki, vətəndaşlar kütləvi şəkildə qaydaları pozmağa cəhd edirlər. Onlar cəmiyyətin müxtəlif təbəqələrinin müraciətinə laqeyd yanaşırlar. Nəticədə rəqəmlər artır və tibb müəssisələrinin üzərinə böyük yük düşür. Yükün böyük bir hissəsi paytaxtın üzərindədir. Onu da qeyd edim ki, xüsusi rejimli xəstəxanaların bəzilərini tam boşaltmışdıq, onların infeksion korpusları istifadə edilirdi.

ardı səh. 3



# 545 kiloqram heroin aşkar edilib

**Azərbaycan gömrük orqanları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində növbəti uğurlu əməliyyatını həyata keçirib.** Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə İran İslam Respublikasından Ukrayna Respublikasına yük avtomobilində külli miqdarda narkotik vasitənin gömrük nəzarətindən gizlədilərək aparılacağı barədə məlumat daxil olub. Həmin əməliyyat məlumatı əsasında, Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postunda Azərbaycan Respublikası ərazisindən tranzit keçməklə İran İslam Respublikasının Astara şəhərindən Ukrayna Respublikasının Xarkov şəhərinə "yemiş" yükü aparan Azərbaycan vətəndaşı Allahverdi İman oğlu Məmmədovun etibarnamə ilə idarə etdiyi "Mercedes-Benz" markalı, 99BF868/99ZD868 dövlət qeydiyyat nişanlı yük nəqliyyat vasitəsi saxlanılıb. Gömrük yoxlamasından öncə adı çəkilən vətəndaş idarə etdiyi yük avtomobilində müvafiq sənədlərdə göstərilən "yemiş" yükündən başqa, gömrük nəzarətinə bəyan edilməli heç hansı predmetin olmadığını bildirib.

Lakin kinoloji xidmət itinin tətbiqi ilə keçirilən yoxlama zamanı xidməti it avtomobilin qoşqusuna reaksiya verib. Qoşquda olan 26 ədəd paletdə qablaşdırılan "yemiş" yükü boşaldılıb və xidməti itin təkrar yoxlanılıb. Bu dəfə isə xidməti it əsasən 10 ədəd paletə reaksiya verib və həmin paletlərdə olan yüklər əsaslı yoxlanılıb.

Yoxlama zamanı 10 paletdə olan 720 ədəd yeşikdə 526 ədəd bağlama aşkar edilib. Bu bağlamalar "örtücü mal" qismində istifadə olunmaq məqsədilə yığılan "yemişlərin" altından çıxarılıb. Bağlamaların içərisində isə preslənmiş halda, spesifik qoxu ilə müşayət olunan, açıq-qəhvəyi rəngli, qablaşdırma ilə birlikdə ümumi çəkisi 545 kiloqram 105 qram təşkil edən narkotik vasitə - heroin aşkar edilib.

Faktla bağlı nəqliyyat vasitəsinin sürücüsü Məmmədov Allahverdi İman oğlu CM-nin 206.3.2, 234.4.1 və 234.4.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub. Xatırladaq ki, Azərbaycan gömrük orqanları son üç gün ərzində 826 kiloqram 054 qram heroin aşkarlayıb və həmin narkotik vasitələrin Avropanın qara bazarında dəyəri 50 milyon avrodan artıqdır.

"HƏFTƏ İÇİ"ndən



## Gəncəyə 50, Balakənə 70 manata gedən avtovağzal taksiləri

Adi günlərdə 10 manat olan taksilər bahalılığı avtovağzalın bağlı olması ilə əlaqələndirdilər

bax səh. 7



## 5 iyun - Ümumdünya Ətraf Mühit Günüdür

Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində görülən işləri beynəlxalq qurumlar da yüksək qiymətləndirirlər

bax səh. 6



# Ermənistan terror dövlətidir və bunu dəfələrlə göstərib

**Prezident İlham Əliyev Tərtər və Ağcabədi rayonlarına səfər edib. Dövlət başçısı Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov dövlətimizin başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verdi.**

Bildirildi ki, inşasına 2019-cu ilin aprel ayında başlanmış və noyabr ayında başa çatdırılmış muzey binasının ümumi sahəsi 720 kvadratmetrdir. Muzeyin sərgi zalında ümumilikdə 8 bölmə yaradılıb. Burada Azərbaycanın müxtəlif dövrlərə aid xəritələri sərgilənir. Prezident İlham Əliyev: Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın.

Müstəqim Məmmədov: Baş üstə.

Prezident İlham Əliyev: İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər.

Muzeydə xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, ümummilli lider Heydər Əliyevin andiçmə mərasiminə dair fotoşəkillər, dövlət rəmzləri haqqında kələmləri nümayiş etdirilir. Burada, həmçinin tarixi fotoşəkillər, poçt markaları, orden və medallar sərgilənir. Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə hündürlüyü 72 metr olan dövlət bayrağı ucaldılıb, ətrafındakı fəvvarə kompleksi yenidən qurulub.

İyunun 3-də Tərtər rayonunda Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, 6 min 800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 21,5 kilometrdir. Dördüncü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr, hərəkət zolaqlarının sayı 2-dir. Yolboyu avtobus dayanacaqları, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib.

Prezident İlham Əliyevə Tərtərdə icra olunan digər yol layihələri barədə məlumat verildi. Qeyd edildi ki, dövlətimizin başçısının müvafiq tapşırıqlarına və sərəncamlarına uyğun olaraq bu gün Tərtər rayonunda avtomobil yollarının 81 faizi tam asfalt-betonla örtülüb. Qalan 17 kilometr kənd yollarının yenidən qurulması yaxın zamanlarda başa çatdırılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışında iştirak edib. Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış olub.

Tərtər şəhərində Olimpiya İdman Kompleksinin inşa edilməsi cəbhə bölgəsində yaşayan gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmanla sərbəst məşğul olmalarında mühüm rol oynayacaq. Kompleks ilə tanışlıqdan sonra Prezident İlham Əliyev rayonun bir qrup idmançısı ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi:

- Bu gün Tərtər rayonunda müasir Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə sizi təbrik edirəm. Kompleksə tanış olarkən görürəm ki, bütün işlər çox yüksək səviyyədə görülüb. İndi Tərtərdə də idmanla məşğul olmaq üçün çox gözəl imkanlar olacaq.

Bildiyiniz kimi, Azərbaycanın bölgələrində idman qurğularının tikintisi geniş vüsət alıb. Hesab edirəm ki, Azərbaycan bu parametr üzrə dünya miqyasında qabaqcıl yerlərdədir. Bölgələrdə tikilmiş Olimpiya komplekslərinin sayı artıq 46-ya çatıbdır. Onu da bildirməliyəm ki, 5 rayonda Olimpiya İdman komplekslərinin tikintisi davam edir. O layihələr də başa çatandan sonra, ümumiyyətlə, rayonlarda 51 idman kompleksimiz olacaqdır.

Əlbəttə, bu, imkan verəcək ki, rayon idmançıları öz peşəkarlığını artırsınlar. Burada bütün şərait yaradılıb - böyük oyun zalı, güləş, boks, trenajor zalları, üzgüçülük hovuzu. Hətta mehmanxana da var. Tərtərdə heç vaxt üzgüçülük hovuzu olmayıb. Böyük stadion inşa edilib. Stadion da heç vaxt olmayıb. Mini futbol, voleybol, yəni, idmanın əksər növləri ilə burada məşğul olmaq olar. Əminəm ki, Tərtər idmançıları bu imkanlardan istifadə edərək həm ölkə daxilində, həm beynəlxalq arenada yaxşı nəticələr göstərəcəklər. Tərtərdə idman həmişə inkişaf edib. İndiki şəraiti nəzərə alsaq, əlbəttə ki, daha da böyük ümidlərimiz vardır.

Bütövlükdə isə ölkəmizin idman infrastrukturu istənilən beynəlxalq yarışın keçirilməsi üçün imkan yaradır. Bakı şəhərində artıq iki çox böyük beynəlxalq idman yarışı keçirilib. Deyə bilərəm ki, Yay Olimpiya Oyunlarından sonra öz miqyasına görə Avropa Oyunları ikinci yeri tutur. Bildiyiniz kimi, Avropa Oyunları heç vaxt tarixdə keçirilməyib və birinci Avropa Oyunları məhz Azərbaycanda keçirilib. Çünki bir çox ölkələr bundan imtina edib, çünki bu, bir yenilik idi. Bir çox ölkələr tərəddüd edirdilər ki, bunu bacaracaqlar, yoxsa yox. Biz isə bunu bacardıq, özü də yüksək səviyyədə. Onu da bildirməliyəm ki, həm Avropa Oyunları, həm IV İsam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi idman potensialımızı gücləndirdi, eyni zamanda, Azərbaycanı dünyada müasir ölkə kimi təqdim etdi. Avropa və İslam Həmrəyliyi oyunlarında 100-dən çox ölkədən 10 mindən artıq idmançı, minlərlə qonaq iştirak edib. Əminəm ki, onların hər biri Azərbaycandan ən xoş təəssüratla ayrılıb. Ölkəmizin tarixi, inkişafı, xalqımızın qonaqpərvərliyi, müasir həyatı ilə bağlı onlarda dolğun təsəvvür var. Sirr deyil ki, hətta bu günə qədər bəzi dairələr Azərbaycan haqqında müxtəlif uydurmalar, həqiqəti əks etdirməyən saxta informasiyalar yayırlar. Ona görə Azərbaycana gələn hər bir qonaq, - əgər o, qərəzsizdirsə, - öz gözü ilə ölkəmizin inkişafını, xalqımızın rahat yaşamasını, ölkəmizdə hökm sürən sabitliyi görür. Onu görür ki, bu gün müasir və müstəqil Azərbaycan dövləti ən yüksək zirvədədir. Mən tam əminliklə deyə bilərəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər müstəqil və azad olmamışdır.

Bizim idmanla bağlı tədbirlərimizin əsas məqsədi insanların sağlamlığını təmin etməkdir. İdmançılar yaxşı bilirlər ki, idman insan sağlamlığı üçün ən əsas amillərdən biridir. Ona görə mən həm idmançılara görüşlərdə, həm də digər auditoriyada çıxışlarımda həmişə vurğulayıram ki, hər bir insan idmanla məşğul olsun. Söhbət ondan getmir ki, hər kəs idmançı olsun. Amma idmanla məşğul olan insan sağlam olur. İdman insanı fiziki cəhətdən gücləndirir, eyni zamanda, bizim idmançılarımız bu gün meydanda də bir çoxları üçün nümunədir. Beləliklə, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan. Fiziki cəhətdən güclü insan, adətən, öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır. Bir neçə il bundan əvvəl təşəbbüs irəli sürdüm ki, Azərbaycanda hər bir insan ildə bir dəfə pulsuz müayinədən keçsin. Buna nail olmaq üçün əlbəttə ki, bütün şəhərlərdə müasir xəstəxanalar olmalı idi və biz artıq buna təmin etmişik. Bir neçə ildir ki, 5 milyondan çox insan hər il pulsuz müayinədən keçir, öz fiziki vəziyyətini müəyyən edir və xəstəlik aşkar olunan təqdirdə lazımi müalicə alır. Beləliklə, bu və digər tədbirlər nəticəsində Azərbaycanda insanların ömrünün uzunluğu artıb. Azərbaycan xalqı indi daha sağlamdır və həm tibbi müayinədən keçmək, həm idmanla məşğul olmaq - bu iki amil hesab edirəm ki, insanların sağlamlığı üçün əsas rol oynayır. Əlbəttə, biz çalışmalıyıq ki, uşaqlarımız, yeniyetmələr idmanla müntəzəm məşğul olsunlar. İdmançılar yaxşı bilirlər ki, yalnız müntəzəm məşqlər nəticəyə gətirib çıxarır. Ümid edirəm ki, bu imkanlardan həm idmançılar, həm də rayonun digər sakinləri istifadə edəcəklər. Hesab edirəm ki, bu Olimpiya İdman Kompleksi rayon üçün gözəl sağlamlıq və istirahət mərkəzinə çevriləcək.

ardı səh. 2

# Sərəncam



**Prezident İlham Əliyev Tərtər rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Tərtər rayonunun əhalisi 28149 nəfər olan 18 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 21 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,47 milyon (bir milyon dörd yüz yetmiş min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

***

**Prezident İlham Əliyev Tərtər rayonunun Xoruzlu kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Tərtər rayonunun Xoruzlu kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılıb.

# Ermənistan işğalın nəticələrini legitimləşdirə bilmədi

**“Ötən dövr ərzində Ermənistan işğalın nəticələrini legitimləşdirmə bilmədi”. Bunu Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyev deyib. O bildirib ki, Ermənistanın əlində yeganə çıxış yolu təxribat törətməkdir.**



“Ermənistanın təxribat xarakterli hərəkətləri çox olacaq, biz buna hazır olmalıyıq. Konstruktiv şəkildə öz işimizi davam etdirməklə torpaqlarımıza qayıtmaq üçün zəmin hazırlayırıq. Ölkə rəhbərliyi də bu istiqamətdə yorulmadan çalışır. Biz ədalətə, öz haqq işimizə inanırıq. Tezliklə sonda inamımız müvəffəqiyyətlə öz torpaqlarımıza, Qarabağa qayıtmağımız üçün bizə kömək olacaq. Çünki biz inanırıqsa ki, haqq bizim tərəfimizdədir, biz ona nail olacağıq. Hər şeyi ağılla, səbirlə, konstruktiv yolla, dünyada baş verən prosesləri nəzərə almaqla etməliyik”, - deyə T. Gəncəliyev vurğulayıb.

# Daha 325 yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 325 yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.** Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1954, 1955, 1956, 1973 və 1978-ci il təvəllüdlü 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 6260 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3665 nəfər müalicə olunaraq sağalıb, 76 nəfər vəfat edib, 2519 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 61 nəfərin vəziyyəti ağır, 78 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 315 527 test aparılıb.

# “Şahdəniz” yatağı üzrə gəlirlər açıqlanıb

**“Azəri-Çıraq-Günəşli” (AÇG) yatağından bu il (01.01.2020 - 01.06.2020 tarixinə) 2 106 mln. dollar gəlir əldə edilib.** Dövlət Neft Fondundan hafta.az-a verilən məlumata görə, eyni dövrdə Şahdəniz yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər isə 120 mln. dollar olub. Şahdəniz yatağı üzrə qazın satışından əldə olunan gəlirlər də açıqlanıb. Yanvar-may aylarında bu yataq üzrə qaz satışından 66 mln. dollar gəlir əldə edilib.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Ermənistan terror dövlətidir və bunu dəfələrlə göstərib

əvvəli 1-ci səhifədə





Tərtər rayonunun inkişafı daim diqqət mərkəzindədir. Azərbaycan xəritəsində Tərtər rayonunun xüsusi yeri var. Tərtər rayonu cəbhə bölgəsində yerləşir və təbii ki, bu rayona diqqət həmişə yüksək səviyyədə olub. Təsadüfi deyil ki, Tərtər rayonunun sosial-iqtisadi inkişafı üçün son illər ərzində bir çox işlər görülüb. Bu, mənim rayona sayca 6-cı səfərimdir və hər dəfə burada olanda açılışlarda iştirak edirəm, vəziyyətlə tanış oluram, müvafiq tapşırıqlar verirəm ki, işlər daha da sürətlə getsin. Deyə bilərəm ki, son illər ərzində rayonun infrastrukturunun inkişafı çox sürətlə gedir. Bu gün açılacaq yeni yarımstansiya Tərtərin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq.

Baxmayaraq ki, bu günə qədər görülmüş tədbirlər nəticəsində bu sahədə çox böyük irəliləyiş var. Tərtərdə yaşayan insanlar yaxşı bilirlər ki, vaxtilə burada elektrik enerjisi ilə böyük problemlər var idi, fasilələrlə verilirdi, tez-tez kəsilirdi. İndiki dövrdə artıq bu, tarixdə qalır. Düzdür, hərdənbir qəzalar baş verir, ancaq bütövlükdə enerji təminatının dayanıqlığı təmin edilir. Bu gün açılacaq yarımstansiya həm Tərtər rayonu, həm də qonşu rayonlar üçün əlavə imkanlar yaradacaq.

Tərtərdə qazlaşdırma 98 faizə çatır. Təqribən 10 il bundan əvvəl ümumiyyətlə, qazlaşdırmadan söhbət getmirdi. Nəinki kəndlərdə, şəhərdə qaz yox idi. İndi isə əksər kəndlərə qaz xətləri çəkilib və əlbəttə, 98 faiz göstərici bu işlərə xüsusi diqqət yetirildiyini göstərir.

Yol təsərrüfatı tamamilə yenilənir. Bu gün biz yeni yolun açılışını qeyd etdik və təqdimatda o yolun əvvəlki vəziyyəti əks olunmuşdu. Heç asfalt da yox idi, payız-qış aylarında keçilməz torpaq yollar idi. Hazırda Tərtər rayonunda yolların salınması və təmiri ilə bağlı çox böyük işlər görülür. Yolların 80 faizi əsaslı təmir edilib və bir layihə də icra ediləndən sonra 100 faiz olacaq.

Beləliklə, əsas infrastruktur layihələri - elektrik enerjisi, qaz və yollarla bağlı məsələlər öz həllini tapıb. Sosial infrastruktur, gözəl Olimpiya İdman Kompleksi yaradılıb, bir neçə il əvvəl rayon mərkəzi xəstəxanası əsaslı təmir edilib və ən müasir avadanlıq quraşdırılıb. Tərtər şəhərinin su-kanalizasiya layihəsi artıq 4 il bundan əvvəl tamamlanıb və mənim iştirakımla onun açılışını qeyd etmişik. Hazırda içməli su və suvarma layihələrinin icrası davam etdirilir.

Təkcə subartezian quyularının qazılması nəticəsində rayonun su ilə təminatı böyük dərəcədə yaxşılaşıb. Bu günə qədər 72 subartezian quyusu qazılıb. İmzalanacaq yeni sərəncamla əlavə 21 subartezian quyusunun qazılması nəzərdə tutulur. Beləliklə, Tərtər rayonunun suvarma ilə bağlı olan problemləri öz həllini tapacaq və bu, təbii ki, kənd təsərrüfatının inkişafına xidmət göstərəcəkdir.

Taxılçılıq, pambıqçılıq Tərtər üçün ənənəvi kənd təsərrüfatı sahələridir. Pambıqçılığa gəldikdə, Tərtərdə məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan üstündür. Hər hektardan 34 sentner pambıq götürülüb. Ölkə üzrə bu göstərici də yaxşı səviyyədədir, 29 sentnerdir. Amma Tərtər burada qabaqcıl yerlərdədir. Nəzərə almalıyıq ki, mənfur qonşularımız uzun illər ərzində Tərtərin suyunu kəsiblər. O suyu ki, Azərbaycan Respublikası onun yığılması ilə bağlı vaxtilə, 1970-ci illərdə böyük işlər görüb. Sərsəng su anbarının inşası Azərbaycan Respublikası tərəfindən, respublika büdcəsi tərəfindən həyata keçirilib. İndi isə mənfur qonşular bizim suyumuzu kəsiblər. Bu, ekoloji terrordur.

Sirr deyil ki, Ermənistan terror dövlətidir və bunu bu dövlət dəfələrlə göstərib, hətta öz rəhbərlərinə qarşı terror törədiblər. İyirmi il bundan əvvəl Ermənistan rəhbərliyinin bir çox üzvü bu ölkənin parlamentində qətlə yetirildi və o cinayətin üstü açılmayıb. Halbuki hər kəs bilir ki, o cinayətin sifarişçiləri kimdir. Ancaq onu ört-basdır edirlər. Çünki onların terrorçu mahiyyəti bu gün də yaşayır. Kiminsə suyunu kəsmək cinayətdir. Bu, faşizmin təzahürüdür və təsadüfi deyil ki, Ermənistanda faşistlərə abidələr ucaldılır. Azərbaycanda quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə gözəl olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırma aparılır. Kasıb Ermənistanda isə ondan-bundan dilənə-dilənə, güc-bəla ilə yaşayırlar, amma faşistlərə 6 metrlik abidə ucaldırlar. O adam ki, onun Hitlerlə əməkdaşlığı sənədlərlə təsdiq edilib. O adam ki, müharibə zamanı demişdir: “Almaniya uğrunda ölən, Ermənistan uğrunda da ölür”. O adam ki, Sovet İttifaqının müvafiq orqanları tərəfindən həbs olunub, ona 25 il hökm oxunub, həbsxanada da ölüb və reabilitasiya olunmayıb. O adama 6 metrlik abidə ucaldılır və bugünkü Ermənistan rəhbərliyi bu adamı qəhrəman kimi təqdim edir. Bu, nəyi göstərir?! Onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır və bunu hər kəs bilməlidir. Bütün dünya bilməlidir.

Bu gün beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe həqiqəti, ədaləti əks etdirir. Bizim səylərimiz nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar vermişlər. Bizim bir çox ölkələrlə ikitərəfli formatda imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamələrdə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və münaqişənin məhz bu prinsiplər əsasında həll olunması təsbit edilir.

Bildiyiniz kimi, bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası”nda qondarma prezident seçkiləri keçirilmişdir. Qondarma, saxta prezident guya ki, seçilib. Bu gün Dağlıq Qarabağda hakimiyyəti zəbt etmiş xunta rejimidir və əvvəlki rejimin törtöküntüləridir. Ermənistanın əvvəlki rejiminin bəd əməlləri haqqında bütün faktları Ermənistanın indiki rəhbərliyi açıbdır, ictimaiyyətə təqdim edibdir. Onların generalları oğru, onların dırnaqarası “qəhrəmanları” cinayətkar, onların rəhbərləri rüşvətxordur. Keçmiş rejimin nə qədər nümayəndələri həbs olunub, nə qədər axtarışa verilib. Bu, nə deməkdir?! O deməkdir ki, 2018-ci ilə qədər 20 il ərzində Ermənistana cinayətkarlar rəhbərlik ediblər. Onlardan biri indi həbsxanadadır, o birisi isə hələ ki azadlıqda. Halbuki onun da ölkədən çıxışına qadağa qoyulub. Yəni, bir ölkənin müstəqilliyi hələ 30 ilə çatmayıb, ölkənin 20 ili cinayətkarların ixtiyarına buraxılıb. Əlbəttə ki, bu cinayətkar dəstə cinayətkar rejim yaradıb. O cinayətkar rejim ki, bütün milli azlıqları əzibdir. Orada bir dənə də olsun milli azlıq yoxdur. Azərbaycanın qədim torpaqlarında bir dənə də olsun azərbaycanlı qalmayıbdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz dağıdılıbdır, azərbaycanlıların tarixi irsi silinibdir. Nəinki azərbaycanlıların, heç bir başqa millətin nümayəndəsi orada yoxdur. Baxın, dünyanın əksər ölkələrində müxtəlif xalqlar yaşayır. Bu baxımdan Azərbaycan bir örnəkdir. Bunu bütün dünya etiraf edir ki, Azərbaycanda hökm sürən millətlərarası münasibətlər, dinlərarası dialoq dünya üçün nümunədir. Ermənistanda isə əhalinin 99,9 faizi ermənidir. Bu cinayətkar kriminal rejim bütün digər millətlərdən olan insanları müxtəlif yollarla qovub. İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır. Bütün aparıcı ölkələr bu dırnaqarası “seçkiləri” qınayıb və tanımayıb. Baxın, özü də bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya bəyan ediblər ki, seçkiləri tanımırlar. Avropa İttifaqı bəyan edib ki, seçkiləri tanımır. Avropa Parlamenti, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu. O da nəyə görə? Bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda “beşinci kolonu”, satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!

Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq. Qoy, bir bəyanat versinlər ki, indi bu dünyada bəzi ölkələrdə nələr baş verir. Polis zorakılığı, nümayişçilərə qarşı tətbiq edilən güc, nümayişçilərin öldürülməsi, onların gözlərinin çıxarılması, kütləvi surətdə həbs edilməsi, jurnalistlərin döyülməsi, həbs edilməsi, bunlar harada baş verir? Qərb ölkələrində. Açsınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu, məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil və bizi də heç maraqlandırmır, onlar bu saxta seçkiləri tanıyıblar, yoxsa yox. Əsas odur ki, dünyanın sanballı və hörmətə layiq olan təşkilatları Dağlıq Qarabağda keçirilmiş saxta seçkiləri tanımayıb və qınayıblar.

Ona görə bu beynəlxalq təşkilatların və bir çox ölkələrin mövqeyi, əlbəttə ki, bizim mövqeyimizi gücləndirir. Siyasi və hüquqi baxımdan bizim mövqeyimiz mükəmməldir, Ermənistanın mövqeyi qüsurludur. Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında. Onlar bizə hücum etdi, biz cavab verib onları yerinə oturtduq. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad etdik. Onlar nə etdilər? Bizim kəndlərimizi bombaladılar, bax, burada Tərtərdə. Mən Aprel döyüşlərindən sonra gəlib o bombaları, o mərmiləri görmüşdüm, evlərə getmişdim. Tərtər şəhərini, Tərtərin, Ağdamın kəndlərini bombalayıblar. Bu, faşizm deyil, nədir? Dinc əhaliyə qarşı müharibə aparıla bilməz. Onların bizim ordumuza gücü çatmayıb, öz mövqelərini qoyub qaçmışdılar və nə etdilər? Dinc əhaliyə qarşı güc tətbiq etdilər. Hesab edirdilər ki, bu, tərtərlilərə, ağdamlılara təsir edəcək. Bir nəfər də tərpənmədi yerindən, bir nəfər də! Onlar bir daha gördülər ki, Azərbaycan xalqı böyük xalqdır. Mən Aprel döyüşlərindən sonra burada olarkən bir daha tərtərlilərin mərdliyini gördüm. Gördüm ki, onlar öz torpağından heç bir yerə gedən deyillər. Gördüm ki, bütün təhlükələrə baxmayaraq, öz torpağında möhkəm dayanıblar. Aprel döyüşləri mənfur qonşumuza dərs olmalı idi. Ondan sonra 2018-ci ildə Naxçıvan əməliyyatı. Orada da minlərlə hektar torpaq bizim nəzarətimizə keçdi. İşğal olunmuş torpaqları azad etdik. Azərbaycan Ordusu gücünü göstərdi. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Ermənistan ordusunun mənbəyi xarici ianələrdir və bunu açıq etiraf edirlər ki, xarici dəstək olmadan bu ölkə batacaq, bu ölkənin gələcəyi yoxdur. Çünki demək olar ki, onların bütün qonşulara - Azərbaycan ilə Türkiyəyə qarşı açıq şəkildə, digər qonşu ölkəyə gizli şəkildə ərazi iddiaları var. Baxmayaraq ki, onlar bizim tarixi torpağımızda yaşayırlar. Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər bilməlidir, olduğu kimi bilməlidir. İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün. Balaca bir kitabça dərc etsinlər.

İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib. Bu adlar neçənci ildə dəyişdirilib? Ona görə biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus-İran müharibəsindən sonra. Tərtərlilər yaxşı bilirlər və Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır. Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Demokratik Respublikası nə üçün onda qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib. 1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlanılsın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi?

Dağlıq Qarabağ münaqişəsi. Yenə də torpaq iddiası. Əl çəkdimi? Kim əsaslandıra bilər ki, azərbaycanlıların tikdikləri İrəvan - qədim şəhərimiz Ermənistana verilsin. Kim bunu əsaslandıra bilər? Hansı adam? Qoy dursun, desin, mən hesab edirəm ki, Azərbaycan Demokratik Respublikası düz edib, bu işi görüb. Qoy desin. Ona görə bilirsiniz mifologiyaya düçar olmaq ən axırıncı şeydir. Siz gənclər, bütün gənclər tarixi olduğu kimi bilməlisiniz. Onu da bildirməliyəm. Bu hadisə 1918-ci ildə baş verib. Ancaq ilk dəfə bu tarixi faktla bağlı məsələni mən qaldırdım. Mənə qədər heç kim bunu qaldırmayıb. Bizim tarixi kitablarımızda buna rast gəlmək bəlkə nadir hallarda mümkündür. Sanki belə bir fakt olmayıb. Mən bunu qaldırdım. Müxtəlif kürsülərdən, o cümlədən xaricdə olarkən qaldırdım və dedim ki, bu, bizim şəhərimizdir, bizim torpağımızdır. Hər kəs tarixini bilməlidir.

Münaqişəyə gəldikdə, bunun həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Olimpiya Kompleksinin Tərtərdə açılması böyük məna daşıyır. Burada öz gücünü artıran gənclər ölkəmizin uğurlu inkişafına töhfələrini verəcəklər. Mən buna əminəm. Sizi bir daha təbrik edirəm!

İyunun 3-də 110/35/6 kilovoltluq “Tərtər” elektrik yarımstansiyası yenidənqurmadan sonra istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına elektrik yarımstansiyasının fəaliyyəti barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, bu yarımstansiya İstehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə əsaslı şəkildə yenidən qurulub. Bu qurğu vasitəsilə Tərtər şəhərində olan sosial-iqtisadi təyinatlı obyektlərin, həmçinin bütün ətraf kənd və qəsəbələrin, cəbhəyanı hərbi hissələrin, meliorasiya və suvarma sistemlərinin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaq. Yarımstansiyanın istismara verilməsi ilə 17 min 103-ü əhali, 1290-ı qeyri-əhali olmaqla, ümumilikdə, 18 min 393 abonentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında iştirak edib. Dövlətimizin başçısı filialın açılışını bildirən rəmzi lenti kəsdi.

“Azərxalça” ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, burada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və əsas üstünlük orijinal Qarabağ xalça çeşnilərinə veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb.

Diqqətə çatdırıldı ki, bina toxuculuq emalatxanası, konfrans zalı, tibb otağı, anbar, yeməkxana, xalça və xalça məmulatlarının sərgilənməsi və satışı üçün xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Filialda 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub və hazırda 85 nəfər, o cümlədən 71 nəfər toxucu və 14 nəfər inzibati-təsərrüfat işçisi işlə təmin edilib.

Toxucular bir neçə ay ərzində “Azərxalça”nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək. Bu kursun məzunları “Azərxalça” ASC-nin tədris sertifikatı ilə təmin olunacaq. Cəmiyyətin digər filiallarında olduğu kimi, Tərtər filialı da işçilərin daşınması üçün avtobusla təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 3-də Ağdam rayonu ərazisində yerləşən “N” saylı hərbi hissədə olub. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər. Prezident İlham Əliyev hərbi hissədəki şəraitlə tanış oldu.

# "Qaçqınkom"un qarşısında mənzil davası



***Son günlər "Dövlət Qaçqınkom"un qarşısında çoxsaylı insanların toplaşması ilə bağlı məlumatlar yayılıb. Bu gün orada olduq və 30-dan artıq məcburi köçkünlə danışdıq. Bildirdilər ki, karantin dövründə onlayn qaydada çoxsaylı müraciətlər etsələr də, onların müraciətləri baxılmamış qalıb. Ona görə də, birbaşa komitəyə gəliblər. İndi isə onları qəbul edən məsul şəxslər yoxdur.***

Məcburi köçkünlərin sözlərinə görə, əksəriyyəti mənzillə bağlı gəliblər. Müraciətlərinə cavab verən yoxdur. Koronavirusla bağlı komitədə qəbul edən də yoxdur.

**Sərvər İlyas oğlu İsmayılov bildirdi ki, Zəngilan rayon köçkünüdür.** Qarabağ Müharibəsi veteranıdır, 1997-ci ildən Səbail rayonu, Bayıl qəsəbəsi, Fərman Qurbanov küçəsində yerləşən Həmkarlar İttifaqının balansında olan 18a saylı




binanın zirzəmisində 4 nəfər ailə üzvü ilə birlikdə şəraiti olmayan kiçik bir otaqda yaşayır: "İki oğlum, bir qızım var. Hamısı da böyüyüb. Səhər saat 8:00-dən "Dövətqaçqınkom"un binasının qabağında 8 saatdır ayaqüstə dayanmışıq. Bizi qəbul edən yoxdur. Qobu qəsəbəsindən ev verildi, amma biz yenə də evsiz qalmışıq".

**Səfər Tumaz oğlu Cəfərov Laçın rayon köçkünüdür. Ailə üzvü 6 nəfərdən ibarətdir.** Onun sözlərinə görə, 1992-ci ildən Bakı şəhər, Yasamal rayonunda yerləşən Bakı Dövlət Universitetinin müəllimləri yaşayan yataqxanasında məskunlaşıblar: "Yataqxana binasında, təxminən, 10 köçkün ailəsi məskunlaşmışdı. İki ildir bina söküldü. Müəllimlərə kompesasiya verildi. Bizi də yataqxanadan çıxarıb dedilər ki, Qaçqınlar Komitəsi sizi evlə təmin edəcək. Bu iki il ərzində paytaxtda köçkünlər üçün nə qədər şəhərcik salınıb. Söz verdilər, amma bizə mənzil vermədilər. "Qaçqınkom"dan dedilər ki, Qobuda tikilən binadan sizə ev veriləcək, hətta siyahıya da saldılar. Evlər paylanıldı. Yenə də bizə mənzil verilmədi. İndi komitəyə gəlmişik ki, dərdimizi deyək, görək bizə mənzil veriləcək, ya yox. Burada da bizi qəbul etmirlər. Komitənin Qəbul otağının qapısına yazıb-vurublar ki, şikayət və ərizələrə onlayın yolu ilə baxılır. Yazırıq, amma cavab gəlmir".

**Reportaj**

**Cəbrayıl rayon köçkünü Fürüzə Çayoğlan qızı Mustafayeva 1993-cü ildən Yasamalda yerləşən Azərbaycan Dövlət Texniki Unversitetinin 1 saylı yaqaxanasında məskunlaşıb:** "Bizə dedilər ki, Qobu qəsəbəsində təzə salınmış binadan sizə mənzil veriləcək. Sözügedən qəsəbədə püşk atıldı, mənzillər paylanıldı, amma siyahıda mənim adım çıxmadı. Mənzilləri paylayan nümayəndəlik dedi ki, "Dövlətqaçqınkom" a get, müraciət elə. Sizin adınızı siyahıya salsınlar, biz də sizi mənzillə təmin edək. 6 saatdan çoxdur burdayam, bizi qəbul etmirlər".

Digər köçkünlər də eyni problemlə buraya üz tutublar.

■ **Köçkünlərin şikayətlərinin nə dərəcədə haqlı olub-olmamasını araşdırmaq üçün "Dövlətqaçqınkom"la əlaqə saxladıq. Qurumun Mətbuat Xidmətindən bildirildi ki, karantin rejimi ilə əlaqədar olaraq iyun ayının 15-nə kimi vətəndaşlar fiziki qaydada qəbul olunmur:**

"Lakin buna baxmayaraq hələ də məcburi köçkünlər gəlib komitənin qarşısına yığışırlar. İyun ayının 1-də komitənin sədri Rövşən Rzayev gələn köçkünləri qəbul etdi və adamlara da tapşırıldı ki, fiziki qəbul yoxdur, amma virtual qəbul var. Bütün gün ərzində virtual qəbulda olan adamlar görüntülü şəkildə cavablandırılır. Hətta komitə sədri vurtual qəbulda olanlara şəxsən özü cavab verir.

Mətbuat Xidmətindən bildirdilər ki, məcburi köçkünlərə evlərin verilməsi prosesi davam edir: "İlk püşkatma keçirilib. "Qobu Park-3"də dövlət rəhbərinin göstərişi ilə Azərbaycan Dövlət Texniki Universitetinin və Memarlıq Universitetinin yataqxanasında məskunlaşmış 1300-ə yaxın ailə köçürüləcək. Lakin eləleri də var ki, mövcud qaydada onları köçürmək olmur. Ona görə ki, mülkiyyətində ev var və yaxud da evi alıb satıblar. Bir sözlə adlarında ev var. Bu gün də o cür adamlar gəlib komitənin qarşısına toplaşırlar".

✍ *Qələndər*

# Həftəsonu hərəkət tam məhdudlaşdırılacaq

◂ əvvəli 1-ci səhifədə



Sumqayıtdakı 1 saylı xəstəxana da tam şəkildə koronavirusa yoluxmuş xəstələr üçün tam şəkildə ayrıldı.

Bunu isə Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

O bildirib ki, bu da digər tibbi xidmət sahələrinin keyfiyyətinə təsir edə bilər: "Bu gün üçün bəzi təcili olmayan hallar istisna olmaqla tibbi xidmətin heç bir sahəsində axsamaya yol verilməyib. Hər bir reanimasion xəstənin gün ərzində müalicəsi üçün minimum 10-12 tibb işçisinə ehtiyac olur. Onlar həddən artıq yorulduğu üçün 15 gündən bir dəyişdirilir və növbəti personal gətirilir. Hər bir növbədəyişimində də 7-8 min həkim və tibb bacısı COVID-19 xəstələrinin müalicəsi ilə məşğul olmaqdadır".

"İyunun 15-nə qədər sərhədlərin bağlı qalması, uçuşların dayandırılması barədə qərarımız qüvvədədir", - İbrahim Məmmədov deyib.

İ. Məmmədov qeyd edib ki, məhdudlaşdırma şənbə və bazar günləri üçün ola bilər: "Bunun detalları sabah açıqlanacaq qərarda biləcəksiniz. Epidemioloji vəziyyətə əsasən Operativ Qərargah qərar qəbul edir. Bugünkü şərtlərdən çıxış etsək, sərhədlərin açılmasının və aviareyslərin bərpası ilə bağlı qərarın qəbulu aktual görünmür. Amma növbəti həftə vəziyyət necə olacaqsa, buna da uyğun qərar veriləcək".

"TƏBİB ictimai nəqliyyatda sıxlığın aradan qaldırılması üçün təklif verib. Saat 8, 8.30 və 9 olmaqla, işdən çıxmaq saatları tətbiq olunsa, ictimai nəqliyyatda sıxlıqla bağlı problemlər olmaya bilər", - TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, bununla bağlı təklif Operativ Qərargaha təqdim olunub.

"İmtahanlar narıncı zonada, birinci klastrda keçiriləməlidirsə, həmin imtahanların vaxtı dəyişdirilə bilər", - Ramin Bayramlı bildirib. R. Bayramlı daha sonra deyib ki, bu barədə bu günlərdə yekun qərar veriləcək.

"190 manat birdəfəlik ödəmə aprel və may ayları üçün nəzərdə tutulmuşdu". Bunu isə Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib.

İ. Məmmədov qeyd edib ki, məhdudiyyətlər olacağı təqdirdə, 190 manat birdəfəlik ödəmənin verilməsi yenidən aktuallaşa bilər.

"Maskalarla bağlı vahid qiymət var, maskalar 30 qəpikdir", - İbrahim Məmmədov bildirib. İ. Məmmədov deyib ki, idxal olunan maskaların qiyməti fərqlidir: "Bu fərqi hökumət idxalçı şirkətlərə ödəyir. Ölkədə maska qıtlığı ola bilməz. Ola bilər ki, cərimələrin aktuallaşması kimlərdəsə möhtəkirlik etmək arzusu yaradıb. Biz belələrinə xəbərdarlıq edirik ki, bunun cəzası olacaq, buna getmək olmaz".

Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri qeyd edib ki, Prezidentin iştirakı ilə 2 maska istehsalı müəssisəsi açılıb: "Bu istehsal sahələrin gündəlik istehsalı 500 min maskadır. Azərbaycanda isə müəyyən günlər 300 min maska istifadə edilib. Bu gün ölkədə 15 milyona qədər maska ehtiyatı var. Ona görə də ajiotaja ehtiyac yoxdur".

"Məhdudlaşdırmanı hökumət də istəmir, çünki bu, iqtisadi problemlərə gətirib çıxara bilər", - İbrahim Məmmədov deyib. İ. Məmmədov qeyd edib ki, Azərbaycanda ərzaq təminatı və digər sahələrdə hər hansı problem yoxdur: "Ancaq biz uzun müddət çox sadə qaydalara əməl etməsək, bu, həm sağlamlıq problemlərinə, həm də iqtisadi problemlərə gətirib çıxara bilər". "Biz vəziyyətin belə olacağını gözləmirdik", - TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib. O, yol verilən bu səhvlərin bundan sonra çox qısa müddətdə düzələcəyinə əminliyini ifadə edib: "Düşünürük ki, bu həftəsonu qəbul ediləcək qərardan sonra əks epidemik nəticələr əldə olunacaq. Qarşıdakı həftələrdə, həftəiçi də bu qaydalara əməl etsək, bizi daha ciddi və daha sərt addımlar gözləməz".

# 48 hakim intizam məsuliyyətinə cəlb edilib

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə aparılır, dövlət başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq ictimai həyatın bütün sahələrində, o cümlədən məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların qarşısının alınması üzrə ardıcıl tədbirlər görülür.**



Məhkəmə-Hüquq Şurasından hafta.az-a verilən məlumata görə, bu məqsədlə son dövrlər həyata keçirilən institusional və qanunvericilik tədbirləri, hakimlərin təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, infrastrukturun müasirləşdirilməsi, hakim ştatlarının 3 dəfəyə yaxın, o cümlədən sonuncu dəfə dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanı ilə 200 vahid artırılması məhkəmə fəaliyyətinin səmərəliliyinə əsaslı təsir göstərib. Ötən ay hakimlərin təyinatı ilə bağlı 60-dan çox mühüm qərarların qəbulu, o cümlədən dövlət başçısının Sərəncamları ilə Ali Məhkəmənin sədr müavini və kollegiya sədrləri, apellyasiya instansiyası məhkəmələrinin 11 kollegiya sədri, 16 məhkəmə sədrlərinin təyin edilməsi, bəzi hakimlərin iş yerinin intizam qaydasında dəyişdirilməsi, habelə Ali Məhkəmənin 5 hakiminin aşağı işə keçirilməsi və 20-dək yeni nəsl gənc hakimin ali və apellyasiya məhkəmələrinə irəli çəkilməsi mühüm əhəmiyyət kəsb edib.

Mətbuatda xəbər verildiyi kimi ötən ay ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə qarşıda duran vəzifələrə dair Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi və Ali Məhkəmənin sədri Ramiz Rzayevin iştirakı ilə videokonfrans formatında müşavirə keçirilib. Ölkənin bütün məhkəmə sədri və müavinləri, kollegiya sədrlərinin iştirakı ilə keçirilən müşavirədə qanunun aliliyinin və qərarların ədalətliliyinin təmin edilməsi ilə bağlı dövlət başçısının tövsiyələri diqqətə çatdırılmaqla, qanun pozuntularına ciddi reaksiya verilməsi, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının alınması üzrə əsas tədbirlər vurğulanıb.

Qeyd edilən məsələlərin hər bir hakimin və məhkəmə işçisinin nəzərinə çatdırılması məqsədilə bu ərəfədə Məhkəmə-Hüquq Şurasının, Ədliyyə Nazirliyinin məsul şəxsləri və apellyasiya məhkəmələrinin rəhbərliyinin iştirakı ilə bütün məhkəmələrdə hakimlər və məhkəmə aparatı əməkdaşları ilə birgə müşavirələr keçirilib. Məhkəmə sistemində şəffaflığın təmin edilməsi, süründürməçilik, sui-istifadə hallarının, qeyri-prosessual münasibətlərin yolverilməzliyi, bununla bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb, yol verilən nöqsanlar və onların səbəbi müzakirə edilib. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanına uyğun olaraq 60-dan çox məhkəmədə keçirilən monitorinqlər zamanı insanların haqlı narazılığına doğuran 150-dən artıq halın aşkar edilərək hakim və məhkəmə sədrlərinin diqqətinə çatdırılması, daha kobud pozuntularla bağlı isə intizam icraatlarının başlanıldığı vurğulanıb. Ötən il 48 hakimin intizam məsuliyyətinə cəlb edilməsi, 2 nəfərin səlahiyyətlərinə xitam verilməsi, 7 nəfərin işdən azad olunması, 2 hakim barədə isə materialların korrupsiya əməllərinə görə istintaqa verilməsi və artıq onlardan birinin, həmçinin vasitəçilik etmiş məhkəmə aparatı işçisi və vəkilin cinayət məsuliyyətinə cəlb olunmaqla, məhkum edildiyi qeyd olunub.

Vətəndaşların haqlı narazılığına səbəb olan, məhkəmə sisteminə ictimai etimadı azaldan və ədalət mühakiməsinin nüfuzuna xələl gətirən hallara yol verən hakimlər barədə ən sərt tədbirlərin görüləcəyi hər bir hakimin diqqətinə çatdırılıb.

Dövlət başçısının tövsiyələrinə uyğun olaraq Şura tərəfindən cari ildə qəbul edilmiş hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydalarının tətbiqinin hakimlərin məsuliyyət hissinin artırılmasında, sistem xarakteri daşıyan nöqsanların aşkar edilməsində daha işlək mexanizmlər yaratdığı vurğulanıb. Məhkəmə sistemində hüquq pozuntularının qarşısının alınması və onlara qarşı dözülməz münasibətin təşviqi üzrə tədbirlər davam etdirilir.

✍ *Hafta.az*

# Tramp Nyu-Yorka qoşun yeritməyə çağırdı



**ABŞ Prezidenti Donald Tramp etiraz aksiyalarının davam etdiyi Nyu-York şəhərinə qoşunları yeritməyə çağırıb. Bu barədə D.Tramp öz "Twitter" səhifəsində yazıb.**

Prezident vurğulayıb ki, Nyu-Yorkda vəziyyət nəzarətdən çıxıb: "Şəhərin meri və ştatın qubernatoru etirazları dərhal dayandırmalıdır".

D.Tramp daha sonra ştat rəhbərliyinin federal qoşunları köməyə çağırmasını gözlədiyini yazıb. ABŞ-ın keçmiş prezidenti Corc Buş afroamerikalı Corc Floydun polis zorakılığı nəticəsində öldürülməsi barədə açıqlama verib. "Laura və mən Corc Floydun amansızlıqla boğulmasına görə əzab çəkirik. Ölkəmizi boğan ədalətsizlik və qorxudan narahatıq. İndi dərs vermək deyil, dinləmək zamanıdır", - deyə C.Buş bildirib.

Keçmiş prezident ölkədəki faciəvi uğursuzluqların mühakimə edilməsinin vaxtının çatdığını vurğulayıb. ABŞ-ın Minneapolis şəhərində qaradərili Corc Floydun polis tərəfindən öldürülməsindən sonra ölkə ərazisində başlayan etiraz aksiyaları zamanı 9,3 min nəfər saxlanılıb. Bu göstəriciyə görə Los-Anceles şəhəri liderlik edir. Burada 2,7 minə yaxın etirazçı saxlanılıb. Nyu-Yorkda bu rəqəm 1,5 minə yaxın olub. Bundan başqa, Dallas, Hyuston və Filadelfiya şəhərlərinin hər birində yüzlərlə şəxs saxlanılıb. Aksiyaların qarşısının alınması üçün 28 ştatda və Vaşinqtonda Milli Qvardiyanın 20 mindən çox əsgəri cəlb edilib. ABŞ-ın 40-a yaxın şəhərində komendant saatı tətbiq edilib.

# Rayonlararası avtobuslar yeni qaydalarla fəaliyyət göstərəcək



**Rayonlararası müntəzəm marşrut avtobusları yeni qaydalarla fəaliyyət göstərəcək. Hafta.az xəbər verir ki, bu barədə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova deyib.**

O bildirib ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tövsiyələrinə əsasən avtobuslar hazır vəziyyətə gətirilib. Nazirlər Kabineti yanında Operativ Qərargah rayonlararası müntəzəm sərnişindaşımaya qoyulan məhdudiyyəti ləğv edən zaman avtobuslar yenidən fəaliyyətə başlayacaq. Avtobuslar səfərlərə tam dolu şəkildə çıxmayacaq. İstirahət üçün nəzərdə tutulan yerlərdə DANX-ın müfəttişləri də olacaq, onlar 3 saat müddətindən çox səfər edən avtobusların sərnişin və heyətinin həmin istirahət məntəqəsində asudə vaxtlarının təmin edilməsinə nəzarət edəcəklər. N.Allahyarovanın sözlərinə görə, avtobusların salonu həmin müddətdə tamamilə boşaldılacaq, təmizlik işləri aparılacaq. Bununla yanaşı, heç bir sərnişin maskasız avtobusa buraxılmayacaq. İlkin olaraq maskasız sərnişinlər avtovağzal və avtostansiyalarda maska ilə təmin ediləcək. Ancaq sonradan sərnişinlər özləri qaydalara riayət edərək maska ilə gəlməlidirlər. DANX-ın nümayəndəsi qeyd edib ki, avtobuslarda qiymət artımının olmamasına da xüsusi nəzarət ediləcək.

# Daha bir tikinti şirkətinin təsisçiləri barədə cinayət işi başlanıb

**"Konstra" Mənzil Tikinti Kooperativinin təsisçilərinin qanunsuz hərəkətləri barədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş müraciətlər araşdırılıb.**



Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, aparılmış araşdırmalarla "Orxan TİT" MMC-nin (hazırda "Şəhər İncisi Yaşayış Kompleksi") sifarişçisi olduğu Bakı şəhəri Nərimanov rayonu Möhsün Sənani küçəsi 13/15 ünvanında tikilməkdə olan çoxmərtəbəli yaşayış binasındakı 143 mənzil və 345 kvadratmetr qeyri-yaşayış sahəsi, eyni zamanda, 13 qarajın podratçı "Konstra" MTK-nin təsisçiləri tərəfindən satış hüquqları olmadığı halda vəzifə səlahiyyətlərindən sui-istifadə edib rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə ayrı-ayrı şəxslərə qanunsuz sataraq əldə olunmuş pul vəsaitini dələduzluq yolu ilə ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödətdirilməsi istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

✍ *Hafta.az*

# Misirdəki bütün azərbaycanlılar ilk gündən həmrəylik içindədirlər

***Azərbaycan xalqının tarixən yaxşı əlaqələri olan ölkələrdən biri də Misirdir. Təxminən, 100 milyon nəfərdən artıq əhalisi olan bu ölkə ikitərəfli və beynəlxalq müstəvidə hər zaman Azərbaycana dəstək verib, xalqlarımız arasında gediş-gəliş olub, necə deyərlər, yaxşı gündə də, pis gündə də bir-birimizin yanında olmuşuq. Bu gün dünyanı bürüyən koronavirus pandemiyası şəraitində də ölkələrimiz eyni bəlanı yaşamaqdadır.***



Nəzərə alsaq ki, orada müəyyən sayda azərbaycanlılarımız da yaşayır, bu ölkədə olub-bitənləri öyrənmək hər birimizin borcudur. Ona görə də "Vətənpərvər" - Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin sədri, tədqiqatçı-alim Seymur Nəsirovla söhbətləşib, bu dost ölkədə baş verənlər, oradakı azərbaycanlıların vəziyyəti haqda məlumat almağa çalışdıq. Oxuyaq görək müsahibimiz nələrdən söz açıb:

- Hər yerdə olduğu kimi, Misirdə də koronavirus pandemiyası yayılmaqdadır. Düzdür, misirlilər arasında bu xəstəliyə dair ikili yanaşma var, adamların bir çoxu belə bir virusun olduğuna inanmır. Son günlər ölkədə virusun sürətlə yayılması, gündəlik yoluxanların sayının çoxalması əhali arasında təşviş yaradır.

Onu da deyim ki, Misirdə ilk koronavirus faktı fevralın 14-də, ölkəyə gəlmiş hansısa əcnəbidə aşkarlanıb. Düzdür, onun konkret hansı ölkənin vətəndaşı olmasına dair məlumat verilmədi ictimaiyyətə, amma bəzi mətbuat orqanlarında çıxan xəbərlərə görə, İtaliyada yaşayan qadın olub, Misirə keçmiş həyat yoldaşının yas məclisinə gəlib və oradakılara bu virusu yoluxdurub. Başqa mənbənin məlumatına görə isə, Misirə virusu gətirən əcnəbi Tailanddan gələn amerikalı imiş. Düzdür, Misir xəstəliyin gec yayıldığı ölkələrdəndir. Burada mart ayında başlanılıb qadağalar qoyulmağa, məktəblər, dövlət idarələri, hava yolları və sair bağlanıb. Hansı ki, iyunun birindən artıq qadağalar yumşaldılıb, bir çox iş yerləri açılıb.

Buna baxmayaraq, ciddi karantin qaydaları qorunur. Dünən mən özüm vizamı təzələmək üçün getmişdim, orada şahidi oldum ki, hamının maska taxması məcburidir, dezinfeksiya işləri görülür, insanların qızdırması ölçülür və sair. Qaydaları pozan vətəndaşları 4 min funt (400 manatdan bir az artıq) məbləğində cərimə, hətta həps cəzası gözləyir.

***- Hazırda 100 milyon nəfər əhalisi olan Misir virusa yoluxanların sayına görə 34-cü yerdədir, yəni 27 min nəfər. Sizcə, Misirdə həqiqətən yoluxma azdır, yoxsa gündəlik keçirilən test sayı aşağıdır?***

- Bugünkü məlumata görə, Misirdə yoluxanların sayı 27 536 nəfərdir. Onlardan 6,8 mindən çoxu sağalıb, 1052 nəfəri isə vəfat edib. Təkcə bu gün 1152 nəfər virusa yoluxub, 47 nəfər isə dünyasını dəyişib. Açığını desəm, şəxsən mən burada tanıdığım insanlardan kiminsə xəstələndiyini eşitməmişəm. Rəhbərlik etdiyim 1300-dən çox tələbə arasında da belə bir yoluxma halı olmayıb. Yenə deyirəm, əvvəllər böyük qism əhali inanmırdısa virusun varlığına, artıq fikrini dəyişənlərin sayı sürətlə artmaqdadır.

***- Misirdə yoluxma sayına görə ölənlərin statistikası xeyli yüksəkdir - 913nəfər. Müqayisə üçün deyim ki, Qətərdə 57 min yoluxanlar arasında ölüm cəmi 38 nəfərdir. Necə bilirsiniz, Misirdə səhiyyə səviyyəsi aşağıdır sizcə, yoxsa başqa səbəb var?***

- Misirdə səhiyyə sisteminin zəif olduğunu deməzdim. Bir çox ərəb ölkələrindən, Afrikadan müalicə, əməliyyat olunmaq üçün məhz Misirə üz tutur xəstələr. Şəxsən özüm bunun şahidiyəm. Onu da deyim ki, çox insanlar bu xəstəliyi əlamətlərinə görə başqa xəstəliklərdən ayıra bilmir. O qədər insan var ki, evdə müalicə olunmaqla xəstəlikdən qurtulub. Xəstəxanaya o adamlar müraciət edir ki, artıq vəziyyətləri təhlükəli hal alır.

***- Misirdəki diaspor təşkilatları olaraq oradakı azərbaycanlıların pandemiya vəziyyəti ilə bağlı maarifləndirmə işlərində iştirak edirsinizmi? Etmisinizsə hansı tədbirlər keçirilib, aztəminatlı insanların dolanışığına dəstək məqsədilə nə kimi köməklik edilib?***

- Təbii ki, Misirdəki bütün azərbaycanlılar və onların milli təşkilatları ilk gündən həmrəylik içindədirlər. Hətta burada yaşayan bəzi imkanlı azərbaycanlılar özləri deyirlər ki, ehtiyac olarsa yardım etməyə hazırdırlar. Bizim burdakı diaspor üzvlərinin ümumi votcap qrupu var ki, ölkədə nə baş verirsə, xəbərini orada yayırıq, hətta ərəbcə bilməyənlər üçün tərcüməsini də edirik. İnsanlara nə yardım lazımdırsa edirik. Buradakı azərbaycanlıların əksəriyyəti tələbələrdir, hətta bayramı da, kiçik heyətlə birbaşa evlərinə gedərək onlarla bir yerdə keçirdik.

Hansı ki, bayram şənlikləri həmişə diaspor təşkilatının ofisində olardı. Bayaq dediyim kimi, buradakı azərbaycanlıların əksəriyyəti tələbələrdir, misirli ilə ailə quranlar da var. Bir neçə iş adamı da tanıyıram. Konkret desəm, o qədər çox deyilik - ümumilikdə 50 nəfər olarıq. Bəli, o da ola bilər ki, başqaları da var, amma mən tanımıram. Şükür Allaha ki, indiyədək soydaşlarımız arasında yoluxma halı olmayıb və ümid edək ki, bundan sonra da olmayacaq.

***- Misirdəki diasporumuz olaraq səfirliklə əməkdaşlıq edirsinizmi bu məsələlərdə?***

- Səfirliklə əməkdaşlığımız çox yüksək səviyyədədir. Hətta bayaq qeyd etdiyim diasporun votcap qrupunda onlar da var. Şəxsən səfir Tural Rzayevlə yaxşı əlaqəmiz mövcuddur. Sağ olsunlar, səfirliyin bütün əməkdaşları hər zaman bizimlə təmasdadırlar, nəsə bir xəbər olsa tez bizimlə paylaşırlar. Belə deyək: əl-ələ verərək, Misirdə vətənimizi layiqincə təmsil edirik.

***- Məlumdur ki, dövlətimiz bir sıra ölkələrdə yaşayan soydaşlarımızın vətənə gətirilməsi üçün çarter reyslər təşkil elədi və bu iş bildiyim qəədr indi də davam edir. Pandemiya aylarında Misirdəki azərbaycanlılardan vətənə qayıdanlar oldumu, oldusa necə qayıtdılar?***

- Bilirik ki, dövlətimiz xaricdə yaşayan soydaşlarımızın Azərbaycana aparılması üçün böyük işlər görür. Düzdür, Misirə indiyədək bu məqsədlə çarter reys təşkil edilməyib, bunun da səbəbi o ola bilər ki, sayımız azdır.

Elə ölkələr var ki, orada çox sayda azərbaycanlı vətənə qayıdacağı günü gözləyir, dövlətimiz də imkanları daxilində məhz həmin ölkələrə reyslər təşkil edir.

Söz yox ki, buradakı tələbələr də hələ mart ayında vətənə qayıtmaq üçün müraciət ediblər, hər halda gözləyirik. Elə bu gün konsulla danışdım, cavab verdi ki, Bakıya rəsmi məlumat verilib və cavab gözləyirlər, bir xəbər olan kimi deyəcəklər. Pandemiya dövründə Azərbaycana bir-iki nəfər qayıdıb, amma indi yox, mart ayında - hava yolu bağlanmamışdan əvvəl. Qalan azərbaycanlılar hələ də burdayıq.

***- Son olaraq deyin lütfən: Misir azərbaycanlıları olaraq Azərbaycan dövlətindən hər hansı gözləntiniz varmı?***

- Mən bir azərbaycanlı olaraq 25 ildir Misirdə yaşayıram. Misir çox böyük ölkədir, tarixi də qədimdir. Bu gün Misir ordusuna görə dünyada doqquzuncu güclü dövlətdir. Belə böyük ölkə olan Misirdə azərbaycanı çox sevirlər və biz də arzu edirik ki, əlaqələrimiz daha da geniş olsun. Ölkələrimiz arasında qarşılıqlı səfərlərin sayının çoxalmasını, Misirdə Azərbaycan Mədəniyyəti Mərkəzinin açılmasını, müştərək universitetlərimizin olmasını istərdik. Düzdür, şəxsi səylərim sayəsində Misir-Azərbaycan Dostluq Cəmiyyəti yaradılıb, sədri də mən seçildim, amma bu azdır, əlaqələrin daha da genişlənməsi vacibdir. Nəzərə alaq ki, bu gün Misirdə 115 ölkədən tələbələr təhsil alır və həmin tələbələr vasitəsilə Azərbaycanı dünyaya daha çox tanıda bilərik.

***Vüsal***

## "Twitter"in Direktorlar Şurasının sədri vəzifəsini tərk edib



**ABŞ-ın "Twitter" şirkətinin direktorlar şurasının sədri Omid Kordestani vəzifəsini tərk edib. Bu barədə ABŞ-ın Qiymətli Kağızlar və Birja Komissiyasının yaydığı sənəddə deyilir.** Məlumata əsasən, O.Kordestaninin yerini "Google" korporasiyasının sabiq maliyyə direktoru Patrik Piçett tutacaq.

O.Kordestani öz növbəsində bildirib: "Twitter"də uzunmüddətli davamlı böyüməni təmin etmək üçün rəhbərliyin gücləndirilməsi və sabitləşdirilməsinə yönəlmiş vacib dəyişikliklərin necə heyəta keçirildiyini öz gözlərimlə görmüşəm və əminəm ki, sədr rolunu tərk edə bilərəm. Patrikin şurada səsi həmişə vacib və müstəqil olub. O, müstəqil sədrin yeni vəzifəsini tutmaq üçün uyğundur".

Qeyd edək ki, P.Piçett 2008-2015-ci illərdə "Google" korporasiyasının maliyyə direktoru vəzifəsində çalışıb, 2018-ci ilin dekabr ayının 31-dən isə "Twitter"də aparıcı müstəqil direktordur.

## Belarus hökuməti istefaya göndərilib

**Belarus Prezidenti Aleksandr Lukaşenko hazırkı hökumətin tərkibinin istefaya göndərilməsi barədə qərar verib. Bu barədə "Belarus 1" telekanalı məlumat yayıb.**



Belarus Nazirlər Şurasına 2018-ci ildən etibarən Sergey Rumas rəhbərlik edir. Bundan bir müddət əvvəl Prezident Lukaşenko avqustun 9-na təyin olunan prezident seçkisindən əvvəl yeni hökumət hazırlamaq haqqında planlarını açıqlamışdı. Bununla yanaşı, o, Nazirlər Şurasının hazırkı üzvlərinin böyük əksəriyyətinin vəzifələrində qalacağını bildirmişdi. Hökümətin yeni tərkibi ilə bağlı təkliflər artıq Belarus rəhbərinə təqdim edilib. Eyni zamanda, Belarus Prezidenti qeyd edib ki, hökumətin tərkibini dəyişdirərkən inqilab olmayacaq.

## Haftar qələbə qazana bilməz

**"Liviyada gedən savaşda Haftar qələbə qazana bilməz". Bunu Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib.** O Liviya Milli Ordusuna (LMO) rəhbərlik edən marşal Xəlifə Haftarın qələbə qazana bilməyəcəyini bildirib. Türkiyə XİN başçısı ABŞ-da afroamerikalı Corc Floydun öldürülməsinə də münasibət bildirib. M. Çavuşoğlu polisin insanı öldürməsinin qəbuledilməz olduğunu vurğulayıb.



## Mühafizəçini öldürərək 51 min manat aparan şəxslər həbs edilib



**Prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxtın Sabunçu rayonu ərazisində qeyri-aşkar şəraitdə törədilmiş qətl hadisəsinin üstü "isti izlərlə" açılıb.**

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərindən hafta.az-a verilən birgə məlumatda qeyd olunur ki, iyunun 1-də səhər saat 06 radələrində 1955-ci il təvəllüdlü Hüseyn Əhmədovun paytaxtın Sabunçu rayonu Kürdəxanı qəsəbəsi ərazisində yerləşən işlədiyi mağazanın anbarında üzərində zorakılıq əlamətləri olan meyitinin aşkar edilməsi, eləcə də mağazanın seyfindən külli miqdarda pul vəsaitinin oğurlanması faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda cinayət işi başlanıb.Aparılmış istintaqla Kürdəxanı qəsəbə sakinləri - 1993-cü il təvəllüdlü Fuad Yusifli və 1992-ci il təvəllüdlü Sadiq Cəlalovun qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək bir qrup şəxs halında özgənin əmlakını quldurluq yolu ilə ələ keçirmək məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və sağlamlığı üçün təhlükəli zorakılıqla bağlı olan basqın edərək iyunun 1-də saat 04 radələrində mağazanın anbar qapısından içəri daxil olub orada mühafizəçi işləyən Hüseyn Əhmədova yumruqla zərbələr vurmaqla, habelə əllərini, ayaqların və ağzını yapışqan lentlə (skotçla) bağlamaqda onu öldürmələrinə, daha sonra isə mağazanın içərəsindəki dəmir seyfdən 51 min 292 manat məbləğində pulu oradan götürüb talayaraq quldurluq etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Prokurorluq və polis əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində Fuad Yusifli və Sadiq Cəlalov Cinayət Məcəlləsinin 120.2.1 (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə), 120.2.11 (quldurluq, hədə-qorxu ilə tələb etməklə əlaqədar adam öldürmə) və 181.3.3-cü (zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla quldurluq) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli şəxs kimi tutularaq istintaqa cəlb olunublar.

Hər iki şəxs müdafiəçinin iştirakı ilə dindirilərkən törətdikləri cinayəti etiraf edib, onlardan hadisə zamanı mağazadan götürdükləri vəsaitin 50 min 492 manatı həmçinin, mağazanın mühafizə kameraları üçün quraşdırılmış cihazlar maddi sübut kimi götürülüb. F.Yusifli və S.Cəlalov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda hadisənin təfərrüatlarının tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***Hafta.az***

## GÜNÜN TƏZADLARI

### Balakəndə icra nümayəndəsinin oğlu narkotiklə saxlanıldı



■ **Balakəndə bir neçə gün əvvəl narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə saxlanılmış Şamil Qarayevin vəzifəli şəxsin övladı olduğu məlum oldu.**

Hafta.az yazır ki, məlumata görə, Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat zamanı saxlanılan Şamil Qarayev Balakən Rayon İcra Hakimiyyəti başçısının Gərəkli kəndi üzrə icra nümayəndəsi Azər Qarayevin oğludur. Şamil Qarayev 2012-ci ildə də Cinayət Məcəlləsinin 228.4 (soyuq silah gəzdirmə) maddəsi ilə 2 il müddətinə azadlıqdan məhrum edilib. Qeyd edək ki, Şamil Qarayev bir neçə gün əvvəl Balakən RPŞ-nin keçirdiyi əməliyyat-axtarış tədbiri zamanı saxlanıb. Onun üzərinə baxış zamanı 26 bükümdə narkotik vasitə olan heroin aşkar edilərək götürülüb.

### Türkiyədə özünü təmizləyən maska hazırlandı



■ **Türkiyədə İzmir İqtisad Universitetinin elm adamları koronavirusdan qorunmaq üçün yeni bir maska hazırladı.** Elm adamları sözügedən maskanı koronavirusla burun-buruna olan səhiyyə işçilərinin qorunması üçün hazırladıqlarını söyləyib. Hafta.az xəbər verir ki, "Pla filament" maddəsindən istifadə edilərək hazırlanan maska hava kanallarına yerləşdirilən ultrabənövşəyi işıq sayəsində özünü təmizləyə bilir. Uzun müddət çıxarılmadan istifadə edilə bilən 80 qram ağırlığındakı maskada 30 dəqiqədə bir aktiv olan ultrabənövşəyi işıqlar filtrlərdə yığılan viruslar və onlara bənzər maddələrin 99,97 faizini yox edir.

### Lənkəranda kişi traktorun altında qalıb öldü



■ **Lənkəranda bədbəxt hadisə baş verib. Hafta.az yazır ki, hadisə rayonun Liman şəhəri ərazisində qeydə alınıb.**

Boladi kənd sakini, 1982-ci il təvəllüdlü Famil Kamil oğlu Musayev ehtiyatsızlıqdan həmkəndlisi, Mikayıl Mansur oğlu Məlikzadənin idarə etdiyi qoşqulu traktorun təkəri altına düşüb. Nəticədə F.Musayev hadisə yerində dünyasını dəyişib. Faktla bağlı araşdırma aparılır.

### Ermənistanda gələn aydan "Kalaşnikov" istehsal olunacağı bilindi



■ **İyulun birinci ongünlüyündən Ermənistanda "Kalaşnikov" avtomatlarının istehsalına başlanılacağı bəlli oldu.** Hafta.az xəbər verir ki, bu haqda erməni mediasına istehsalçı şirkətin baş mütəxəssisi İqor Qordiyenko danışıb. Şirkət Rusiyanın "Kalaşnikov" şirkəti ilə işğalçı ölkənin "Neytron QAM" qapalı səhmdar cəmiyyəti arasındakı razılaşma əsasında yaradılıb. İlk dövrlərdə hərbi sənaye zavodu 7,62 mm kalibrli "AK-103" ("AK-74" silahlarının 7,62 mm-lik tipi) markalı avtomat silahları istehsal edəcək. İlkin mərhələdə detallar Rusiyadan gətirilsə də, Ermənistandakı zavodda "Kalaşnikov" avtomatları sıfırdan yığılacaq.

### Meyvəyığan robot da ixtira edildi



■ **Yeni Zelandiyada kivi meyvəsini səmərəli şəkildə toplaya bilən robot hazırlandı.** Hafta.az-ın Rusiya mediasına istinadən verdiyi xəbərə görə, robotun yaradıcıları deyirlər ki, bunun əsasında əlçatmazlığı və tez zədələnmək ehtimalı nəzərə alınmaqla bu günə qədər yalnız insanlar tərəfindən dərilən meyvələri toplaya biləcək digər qurğular da hazırlamaq mümkündür. "Biosystems Engineering" şirkəti tərəfindən yaradılan yeni robot artıq sahədəki kivinin təxminən 51% -ni toplaya bilir. Hər meyvənin dərilməsi 5,5 saniyə çəkir. Ancaq tərtibatçılar bu nəticələr üzərində dayanmayacaqları və göstəriciləri artıracaqlarına söz verirlər. Robotda intellektual görməyə dörd mexaniki qolundan birinin məhsulu toplamaq üçün ən əlverişli mövqe tapmasına imkan verən neyron şəbəkələrin son nailiyyətlərindən istifadə edilir. Hal-hazırda koronavirus pandemiyası səbəbindən kənd təsərrüfatı sektorunda kəskin işçi qıtlığı yaşanıb. Və bu səbəbdən robotun yaradıcıları hesab edir ki, ixtiraları lap yerinə düşüb...

*Sultan Laçın*

## "Lombardlar haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq

**Milli Məclisin növbədənkənar sessiyasında "Lombardlar haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq. Bu barədə APA-ya açıqlamasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib.** O bildirib ki, bu qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi komitənin də iş planına daxil edilib: "Növbədənkənar sessiyanın sonuna qədər biz bu qanun layihəsinə baxmalıyıq. Komitədə bununla bağlı İşçi qrup yaradılıb, artıq 1 aya yaxındır ki, qanun layihəsi üzərində iş gedir. İşçi Qrup mövcud vəziyyətin tam araşdırılması üçün lombardların özü ilə də görüş keçirib. Qanun layihəsində bir çox dəyişiklik edilib".

Qeyd edək ki, "Lombardlar haqqında" qanun layihəsi Milli Məclisin yaz sessiyasının İşlər Planına daxil edilsə də, yaz sessiyasında qanun layihəsi müzakirəyə çıxarılmayıb.

# 5 iyun - Ümumdünya Ətraf Mühit Günüdür

## Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində görülən işləri beynəlxalq qurumlar da yüksək qiymətləndirirlər

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ekologiya və ətraf mühitin mühafizəsi

***5 iyun - Ümumdünya Ətraf Mühit Günüdür. Qeyd edək ki, XIX əsrin sonlarından başlayan elmi-texniki tərəqqi, sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə edilən təsirlər XX əsrin ortalarında öz mənfi nəticələrini büruzə verməyə başlayıb. Artıq insanlar təbiətə olan münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anlayıblar. Bu problemin gələcəkdə qlobal kataklizmlərə səbəb olacağını başa düşən alimlər, ekoloqlar öz etiraz səslərini ucaltmağa, həyəcan təbili çalmağa başlayıblar.***



Problemin ciddiliyini dərk edən beynəlxalq təşkilatlar, tərəqqipərvər dünya ictimaiyyəti məsələni daim diqqət mərkəzində saxlamağa çalışıb. 5 iyun 1972-ci il tarixində Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının İsveçin paytaxtı Stokholm şəhərində keçirilən iclasında ətraf mühitin mühafizəsi məsələsi diqqət mərkəzində olub. Problemin kəskinliyini, əhali arasında ekoloji şüurun yüksəldilməsinin, ətraf mühitin mühafizəsi problemlərinə diqqətin yönəldilməsinin vacibliyini nəzərə alan iştirakçılar 5 iyunun Ümumdünya Ətraf Mühit Günü kimi qeyd olunmasına qərar verib və növbəti ildən başlayaraq həmin gün bütün dünyada təntənəli şəkildə qeyd olunmağa başlanıb.

Məlumat üçün bildirək ki, hər il Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) Dünya Ətraf Mühit Gününün Avropa regionunda qeyd edilməsi üçün Avropa ölkələrindən baş şəhərlər elan edir. 2010-cu ildə İtaliyanın Genuya, İsveçrənin Cenevrə şəhərləri ilə bərabər Azərbaycanın Bakı şəhəri də mərkəz şəhər seçilib. Bakının bu statusa layiq görülməsi Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiya sahəsində görülən işlərin, həyata keçirilən dövlət və milli proqramların uğurlu nəticəsi kimi qiymətləndirilir və beynəlxalq qurumların Cənubi Qafqaz regionunda Azərbaycana böyük əhəmiyyət verməsindən irəli gəlir.

Təbii ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi istiqamətində də mühüm işlər görülür. Azərbaycanda hələ 2003-cü ildə Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə Milli proqram qəbul olunub.

Minilliyin İnkişaf Məqsədlərindən biri olan Ətraf mühitin davamlılığını təmin etmək üzrə fəaliyyət planına əsasən davamlı inkişaf prinsipləri dövlət siyasəti və proqramlarına daxil edilib. Bu istiqamətdə çirklənmiş ərazilərin bərpası, meşə ilə örtülü ərazilərin miqyasının artırılması, biomüxtəlifliyin mühafizəsi, arid ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, Xəzər dənizinin dəniz ətraf mühitinin qorunması, iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, hidrometeoroloji müşahidə sistemlərinin və monitorinq şəbəkəsinin modernləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq, əhalinin ekoloji şüur səviyyəsinin artırılması fəaliyyət istiqamətlərindən olub.

Hazırda ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir. Bununla yanaşı tullantıların, o cümlədən plastik tullantıların idarə olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilir, tullantıların təkrar emalının təşkili üçün təşviqat işləri aparılır.

Müasir dövrdə həm də enerji təhlükəsizliyi və ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişmələri bəşəriyyəti narahat edən əsas problemlərdəndir. Bütün dövlətlər özlərinin yanacaq-enerji balansına yeni enerji mənbələrinin cəlb edilməsinə çalışırlar.

Bu yarışda külək, günəş, biokütlə, dalğa, qabarma-çəkilmə, kiçik çayların hidroloji enerjisi kimi qeyri-ənənəvi enerji mənbələri xüsusi yer tutur. Ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə yer verilir. "Yaşıl iqtisadiyyata" sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir.

Digər tərəfdən Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas bir ölkədir və ölkə artıq iqlim dəyişmələrinin mənfi təsirlərini - daşqınlar, sellər, quraqlıq, istilik stressləri və s. kimi təbiət hadisələrinin sayının artmasını özündə hiss edir. Bu da adekvat adaptasiya tədbirlərini ön plana çəkir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 2015-ci ildə Paris şəhərində keçirilmiş 21-ci Tərəflər Konfransında qlobal iqlim dəyişmələri üzrə 2020-ci ildən sonrakı dövr üçün iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səviyyəli beynəlxalq-hüquqi sənəd olan Paris Sazişi qəbul edilib. Paris Sazişi, Konvensiyanın həyata keçirilməsinin genişləndirilməsi ilə davamlı inkişafa nail olmaq və yoxsulluğu aradan qaldırmaq üzrə səylər kontekstində iqlim dəyişmələri təhlükəsinə qlobal cavab tədbirlərini gücləndirmək məqsədini daşıyır.

Yeri gəlmişkən, xatırladaq ki, Prezident İlham Əliyevin 2010-cu ili ölkədə "Ekologiya ili" elan etməsi bu sahəyə diqqəti daha da artırıb. "Ekologiya ili" çərçivəsində, eləcə də sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün bu kampaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi sayıla bilər. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir. Müstəqillik illərində ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranmış, təbii ehtiyatların, o cümlədən faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində ardıcıl tədbirlər həyata keçirilib. Keçmişdən miras qalmış ekoloji problemlərin aradan qaldırılması və səmərəli idarəetmə sisteminin yaradılması da Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun artmasına təkan verib.

Hazırda ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir . Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya", "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və digər dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər reallaşdırılır.

Məsələn, uzun illər ərzində neft sənayesinin fəaliyyətindən əmələ gəlmiş tullantılar Abşeron yarımadasında bir sıra ərazilərin həddindən artıq çirklənməsinə səbəb olub. Bununla əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2018-ci ildə Suraxanı rayonunda müxtəlif ərazilərdə, Heydər Əliyev Beynəlxalq Hava Limanının ərazisində uzun illər formalaşan gölməçələrin qurudulması, neft və neft şlamı ilə çirklənmiş ərazilərin təmizlənməsi işləri aparılır. Digər tərəfdən Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişini 2016-cı ilin oktyabrında ratifikasiya edərək 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürüb. Mütəxəssislərin fikrincə, bu öhdəliyi yerinə yetirmək üçün ətraf mühitə dost texnologiyalar tətbiq etməklə infrastruktur layihələri icra olunmalı, tükənməyən enerji mənbələrindən istifadə, enerji səmərəliliyinin artırılması və digər istiqamətlərdə müvafiq layihələr həyata keçirilməlidir.

Onu da vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Həramiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb. Təkcə ötən il, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Nəsiminin anadan olmasının 650 illiyi ilə bağlı ölkə ərazisində bir gündə 650 mindən çox ağac əkilib. Bütün bunlar Azərbaycanda ətraf mühitin qorunmasına, ekoloji problemlərin həllinə verilən dəyərin göstəricisidir.

***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# "Uşaqların ədliyyə sisteminə çıxışı" mövzusunda videokonfrans keçirilib



**Ədliyyə Nazirliyində BMT-nin Uşaq Fondu (UNİCEF) ilə birgə Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Uşaqların ədliyyə sisteminə çıxışı" mövzusunda videokonfrans formatında görüş keçirilib.**

Tədbirdə Ədliyyə, Daxili İşlər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Baş Prokurorluğun, Ombudsman Aparatının məsul şəxsləri, hakim, Vəkillər Kollegiyasının nümayəndəsi, UNİCEF-in Azərbaycandakı ofisinin proqram rəhbəri və vətəndaş cəmiyyətinin üzvləri iştirak ediblər.

Görüşdə cəmiyyətimizin həssas təbəqəsi olan uşaqların hüquqlarının etibarlı qorunması üzrə ölkəmizdə görülən tədbirlər, bu sahədə aidiyyəti dövlət qurumlarının və vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyətinin, UNİCEF-lə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Tədbirdə ümummilli lider Heydər Əliyevin uşaqların hərtərəfli inkişafına daim göstərdiyi yüksək qayğıdan, ölkəmizdə uşaq hüquqlarının etibarlı təmin olmasına xidmət edən qanunvericilik və institusional tədbirlərdən bəhs olunub, dövlət uşaq siyasətinin respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyi, uşaqların sosial təminatının gücləndirilməsi, onların firəvan və sağlam, yüksək mənəvi-əxlaqi mühitdə layiqli şəxsiyyət kimi yetkinləşməsi istiqamətində məqsədyönlü addımların atıldığı vurğulanıb.

Uşaqlara, xüsusilə fiziki imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olanlara daim qayğı və həssaslıqla yanaşan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın balaca soydaşlarımızı əlamətdar gün münasibətilə təbrik etdiyi, onun rəhbərliyi və təşəbbüsü ilə uşaqların təhsili, sağlamlığı ilə bağlı çoxsaylı layihələrin həyata keçirildiyi və yeni müasir sosial infrastrukturun yaradıldığı diqqətə çatdırılıb, bu sahədə Heydər Əliyev Fondunun mühüm fəaliyyəti qeyd olunub.

Bildirilib ki, uşaqların hüquqlarının müdafiəsi ölkəmizin də qoşulduğu BMT-nin "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədlərinin vacib hədəflərindəndir. Həmçinin bu sahədə Azərbaycan və UNİCEF sıx əməkdaşlıq edərək yuvenal ədliyyənin inkişafı ilə bağlı birgə tədbirlər həyata keçirir. Eyni zamanda ölkəmiz UNİCEF tərəfindən hazırlanmış BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının yuvenal ədliyyə sahəsindəki öhdəliklərini ehtiva edən "Öhdəlik Bəyannaməsi"nə qoşulub və sənəd bu yaxınlarda Ədliyyə Nazirliyi tərəfindən imzalanıb.

Doğumun qeydiyyatı sahəsində görülən tədbirlərdən bəhs olunaraq bildirilib ki, Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən cari ilin 5 ayı ərzində 48 minə yaxın doğum dövlət qeydiyyatına alınıb, o cümlədən qeydiyyatdan kənarda qalmış uşaqlar müəyyən olunaraq, onlara və səyyar qaydada tibb müəssisələrində ümumilikdə 700-ə yaxın doğum haqqında şəhadətnamə verilib.

Bununla yanaşı, ölkəmizdə sağlamlıq imkanları məhdud olan, xüsusi kateqoriyaya aid uşaqlara sosial xidmətlərin göstərilməsi, onların reabilitasiyası, yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsi həyata keçirilərkən onların hüquqlarının müdafiəsinin gücləndirilməsi, yuvenal ədliyyə sahəsində hüquq-mühafizə orqanları əməkdaşlarının, hakimlərin, vəkillərin təlimi, bu məqsədlə Ədliyyə Akademiyasında treninqlərin təşkili, müxtəlif regionlarda uşaqlar, onların ailə üzvləri üçün hüquqi yardım xidmətlərinin göstərilməsi, vətəndaş cəmiyyəti institutları ilə aidiyyəti dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin genişləndirilməsi və s. ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

***Hafta.az***

# Nazirlikdən müharibə veteranları ilə bağlı təklif



**Xüsusi xidmətləri olan və 46 təqvim günündən az olmayan əmək məzuniyyəti verilən işçilər sırasına ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslərin də aid edilməsi nəzərdə tutulur.**

Əmək Məcəlləsində dəyişikliklər edilməsinə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni qanun layihəsində bununla bağlı təklif əksini tapır. Həmçinin təklifdə qeyd edilən işçilər sırasına başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində iştirak etmiş işçilərin də daxil edilməsi yer alıb.

Qeyd edək ki, Əmək Məcəlləsinin 120-ci maddəsində bildirilir ki, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) alan işçilərə, Azərbaycanın Milli Qəhrəmanlarına, Sovet İttifaqı Qəhrəmanlarına, 1941-1945-ci illər müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, habelə hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçulara, İstiqlal ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilərə məzuniyyət 46 təqvim günündən az olmayaraq verilir.

***Hafta.az***

# "Son zəng"lə bağlı qərar verildi

**Təhsil Nazirliyi "Son zəng"in keçirilib-keçirilməyəcəyinə aydınlıq gətirib.** Hafta.az bildirir ki, nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, ölkəmizdə koronavirus pandemiyası ilə əlaqədar karantin rejimi davam etdiyindən ( 15 iyunadək ) bütün kütləvi tədbirlər kimi "Son zəng" tədbirinin də keçirilməsi nəzərdə tutulmur. Onlayn qaydada müxtəlif tədbirlər keçirilə bilər.



# Vergi ödəyicilərinə hansı güzəştlər ediləcək?

**Müvəqqəti vergi rejimində fəaliyyət göstərən, pandemiyadan zərər çəkən fəaliyyət sahələrindəki vergi ödəyicilərinə əhəmiyyətli vergi güzəşt və azad olmaları tətbiq edilir. Bunu Dövlət Vergi Xidmətinin idarə rəisi Əvəz Quliyev vergi və sosial qanunvericiliyə edilmiş əsas dəyişiklikləri şərh edərkən deyib.**

Onun sözlərinə görə, pandemiyadan zərər çəkən vergi ödəyiciləri ilin sonuna qədər əmlak və torpaq vergilərindən və əldə etdikləri gəlirin 75 faizi vergidən tam azad olunur. "Pandemiyadan zərər çəkən sahələrdə çalışan şəxslər əgər fiziki şəxslərdən daşınmaz əmlak icarəyə götürüblərsə, bu zaman icarə haqqına görə ödənən icarə haqqı dərəcəsi 14 faizdən 7 faizə endirilir. Bir il ərzində bu güzəştlər qeyd olunan vergi ödəyicilərinə tətbiq olunacaq".



Ə.Quliyev bildirib ki, bunlarla yanaşı daşıma fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə münasibətdə, onlar bilirsiz ki, sabit şəkildə vergi ödəyir. Onlar üçün verginin bazasını təşkil edən məbləğ də 50 faiz həcmində azaldırlır.

"Pandemiyadan zərər çəkməsindən asılı olmayaraq sadələşdirilmiş vergi dərəcəsi 2 faizdn 1 faizə endirilir".

***Hafta.az***

# Gəncəyə 50, Balakənə 70 manata gedən avtovağzal taksiləri

*Hara gedirsən, xaloğlu?*
*- Gəncəyə. Sizin yolunuz hansı tərəfədir?*
*- Qazağa gedirəm, taksi deyil, yol maşınıdır. Neçə verərsən?*
*- Neçəyə aparacaqsınız?*
*- Hələ sən de görüm, neçəyə gücün çatır?*
*- 10 manata.*
*- Yox bir Hamı 50-yə gedir, sən də 40 verərsən. Qurtaranı 35 Yəqin, anladınız yolumu bu dəfə haradan saldığımı.*



Bəli, bəli, düz tapdınız, Bakı Beynəlxalq Avtovağzal Kompleksinin önündən. Açığı, müştəri kimi getmişdim. Reportaj hazırlamaq fikrim yox idi. Amma gördüyüm və eşitdiyim qiymətlər əlimi və içimdəki yanğını dinc buraxmadı.

Deməli, bir yaxın qohumum bir həftədir ki, məcburi olaraq bizdə qonaqlamaq məcburiyyətində qalıb. Səbəbi aydındır - karantin rejiminə görə Həmin bu qohumum bir həftə əvvəl həkimin verdiyi möhürlü kağızla səhhətində problemlər olan ailə üzvünü xəstəxanaya gətirməli olur. İcazə kağızında üç nəfərin adı qeyd edilir - qohumum, onun oğlu və gəlini. Oğlu onları Bakıya çatdırdıqdan sonra kağızı da götürüb gedir. Qohumum da bir müddət gəlininin yanında qalası olur. Oğlu ilə qayıda bilmir.

İndi isə Bakıdan Gəncəyə qayıtmaqda problemlər yaranıb, çünki icazə kağızını oğlu



aparıb. Özü Gəncə qeydiyyatı olduğuna görə geri dönmək üçün ciddi problem yaşamayacaq. Əsas problem isə şəhərlərarası avtobusların işləməməsinə görədir. Eşidib ki, taksilər də çox baha aparır. Məni də avtovağzala göndərdi ki, get gör, durum necədir, münasibət qiymətə taksi tapa bilirsənmi?!

Yazı dili yüyrək olar, avtovağzalın önündə məni 45-50 yaşlarındakı bir kişi yuxarıdakı dialoqla qarşıladı. Sonra dövrəyə aldılar. Söhbət qızışdı. Bütün taksi sürücüləri adam axtarırdı. Qiymətləri eşidən isə arxasını onlara çevirib gedirdi. Hətta Yevlaxa qədər gedən bir taksi sürücüsü - gəl, 25 manat ver, Yevlaxa kimi aparım, oradan da 2 manat verib Gəncəyə gedərsən -dedi.

Gəncəyə gedən taksilərin qiyməti ilə maraqlandıq. Məlum oldu ki, qiymətlər 40-50 manatdan başlayır. Adi günlərdə 10 manat olan taksilər bahalılığı avtovağzalın bağlı olması ilə əlaqələndirdilər.

Bildirdilər ki, bu, vəziyyətdən sui-istifadə deyil, sadəcə olaraq gediş-gəlişdə yaranan çətinliklə bağlıdır. Maksimal qiymət isə 120 manata qədər gedib çıxır. Sürücülərin xor dialoqlarından, mənimlə söhbətindən aydın şəkildə eşitdiyim cümlələri olduğu kimi təqdim edirəm:

*- Gəncə qeydiyyatısansa, 40 manat*

- Qiymət öldürmə (bir başqa taksi sürücüsü 40 manat deyən həmkarının üzərinə gəlir), Gəncəyə 50 manatdır.

*- O da hələ Gəncə qeydiyyatısansa.*

- Gəncə qeydiyyatı olmayanlara 80-120 manat arası deyirik. Hövsələdən çıxıram: "Niyə bir qiymət deyil, 80-lə 120 manat arasında 40 manatlıq fərq var", - deyə soruşuram. Cavab da unikaldır:

*- Qohuma-tanışa 80, yad adama, təcili işi çıxana 120.*

Qiymət mərhələsi bitəndən sonra üzərində sənədinin olub-olmadığını soruşurlar. Sənəd olmasa, Gəncə qeydiyyatı da olsan, 80 manatdan aşağı aparmadıqlarını söyləyirlər.

Sözarası avtomobildə tibbi spirt, tibbi əlcəklərdən istifadə edib-etmədiklərini, sürücülərin tibbi maska taxıb-taxmadığını soruşduq. Gülüşdülər.

Hələ ironiya ilə dedilər ki, qazandığımızı da tibbi maskaya, spirtə verək? Heyrət məni bürüdü. Bütün lazımi avadanlıqların qiyməti heç 10 manat eləmədiyi halda, özləri ilə yanaşı sərnişinlərin də həyatını təhlükəyə atan bu adamların maşınına çoxları çarəsizlikdən minir desək, şübhəsiz yanılmarıq.

Bir az özümü düşünürmüş kimi, aparıb taksi sürücülərinin səs-küyündən aralanıram. Daha ucuz qiymətə aparan 6-8, 8-10 nəfərlik "Vita"lara - nisbətən iritutumlu taksilərə yaxınlaşıram. Qiyməti soruşuram. 25 manat deyirlər. Amma "Gözləməli olacaqsınız, hələ iki adamım var" - sözünü də bəribaşdan söyləyirlər. Əlavə edirlər ki, adam yığıb yola düşmək saatyarım vaxt alır. 4-5 saata da mənzilbaşına çatırlar. Təbii ki, yolda saxlanmaq şərti ilə "Vita" sürücüləri onu da deyirlər ki, əgər əyalət qeydiyyatısınızsa, qiymət 25 manatdır. Yox, Bakı qeydiyyatısınızsa, qiymət dəyişir, 40 manata qədər yüksəlir.

Maraq məni bürüyür. Bir qədər də düşünürəm. Başqa istiqamətlərə gedən taksilərlə maraqlanıram. Şəkiyə gedən taksilər 30-35 manatdan dəm vururlar:

- Sənin gözou yiyaram, bunnan aşağısı "padval"dı, - deyib gülə-gülə endirimdən yayınır. Zaqatala və Balakənə isə kiçikölçülü taksilərin qiyməti 70 manatdan başlayır. Akif adlı sürücü deyir ki, polis arxada 2 nəfər oturmasına icazə verir, ona görə də qiymətlər qalxıb: "Ara məsafəsini gözləmək tələb edirlər. Bu da o deməkdir ki, bir nəfər çıxır. Onun pulunu da digər sərnişinlərə "yükləməli" olursan. Çünki onsuz da bu yolu gedirik. Bizə də xeyir qalmalıdır, ya yox?!".

Başqa bir taksi sürücüsü isə Quba-Qusar istiqamətinə 8 manata apardığını söyləyir. Adi günlərdə 5 manata olan bu istiqamətdəki yolun qiyməti yenə də sabit deyil. 8 manat iritutumlu mikroavtobusların qiymətidir. Avtomobillərin qiyməti isə 8-12 manat arasındadır. Sövdələşməyə görə qiymətlər dəyişir.

Qazax istiqamətinə gedən mikroavtobuslar 40-50, 3 nəfərlik "Mercedes" taksilər isə 70-80 manata aparır. Bir sərnişinlə söhbətimiz zamanı indi qiymətlərin aşağı düşdüyünü vurğulayır:

"Karantinin ən sərt günlərində "Qırmızı körpü"yə adamın birini 200 manata aparan taksilər vardı. Hətta yanımda bir nəfər maşını doldurub 800 manatı cibinə qoyduqdan sonra yola düzəldi. Belə insafsızlıq olmaz axı. Hamımız azərbaycanlıyıq. İndi karantin rejimi yumşaldılıb. Ona görə də qiymətləri xeyli aşağı endirməyə məcbur olublar. İnşallah, avtobus açılan kimi yenə də burada 10 manata yalvaracaqlar".

Sürücülərlə söhbətləşdikdən sonra buradan uzaqlaşıram. Avtovağzalın yaxınlığındakı körpünün altında bir sürücü yaxınlaşır. Soruşur ki, yol adamıdır, Gəncəyə gedir, 100 manat versəm, yolda heç kimi götürməyəcək. Nə ağzında tibbi maskası, nə maşınında tibbi spirit var Yanındakı oğlan isə göz vurur, bir az aralaşdıqdan sonra pıçıltı ilə deyir ki, çoxdanın sürücüsüdür. Bu cür aldadaraq avtovağzal ərazisindən götürür. Yolda da bir-iki nəfər tapacaq. Mənzilbaşına kimi xeyli pul alacaq. Bu sürücülərlə biz bir də qismət olsa sabah görüşəcəyik.

✍ *Tural*

# Sumqayıtın məşhur 14 mərtəbəsi: tələbələrin "intihar yuvası"

**Ali məktəblərə qəbul imtahanlarının başlamasına çox az bir müddət vaxt qalıb. Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə bir neçə gün öncə canlı videokonfransında imtahanlar barədə məlumat verdi.**



Dediyimiz kimi, imtahanların başlamasına az qalıb, valideynlər, eləcə də abituriyentlər isə həyəcan içində... Əvvəlki illərdə bir çox valideynlərin həyəcanı məyusluqla bitmişdi. İmtahan nəticəsi ilə barışmayan abituriyentlərdən intihar edənləri də oldu. Bu intihardan bir Sumqayıt şəhərində yerləşən və məşhur 14 mərtəbəli binadan özünü atan abituriyentin ölüm xəbəri idi.

Belə ki, buranı intihar üçün əlverişli hesab edənlər öz arzusuna çata bildiyini desək, yerinə düşmüş olar. Bu intihardan sonra Sumqayıt İcra Hakimiyyətindən mətbuata bildirdilər ki, hə-



min binanın açıq qalmış pəncərələrinə dəmir barmaqlıqlar vurulacaq.

İmtahanların yaxınlaşması mövzunu yenidən gündəmə gətirir. Bəs bu il o pəncərələr ölüm yuvası olacaqmı, yoxsa verilən vəd öz həllini tapıb?

Bu məqsədlə yolumuzu Sumqayıt şəhərinə saldıq. Sözügedən məşhur binanın yerləşdiyi əraziyə getdik. Binanın həyətində dincələn sakinlər jurnalist olduğumuzu görüb nə məqsədlə gəldiyimizi soruşdular. Sakinlər bildirdilər ki, baş verən məlum intihar hadisələrindən sonra dəmirbarmaqlıqlar vurulub. Biz də tam aydın olsun deyə, 14-cü mərtəbəyə qədər çıxdıq. Həqiqətən də binanın bir blokunun açıq qalmış pəncərələrinə həmin dəmir barmaqlıqlar vurulub. Daha intihara cəhd etmək istəyənlər üçün bura əlverişsiz şərait olduğunu deyə bilərik.

Digər bloklarda bu işin yerinə yetirildiyini görmədik. Ərazidə olan sakinlərdən vəziyyəti soruşduq. Onlar bildirdilər ki, birinci blok üçün pul yığılıb və şəhər rəhbərliyinin göstərişi və köməkliyi ilə həll olunub. Digər bloklar üçün də ediləcəyi haqqında göstəriş verilib. Həmin ərazidə yerləşən 7 saylı MKS-nin rəisi Cəlal Məmmədovun yanına getdik. O bildirir ki, həmin işləri görmə üçün lazımı vəsaitləri yoxdur. Baş idarə onlara yardım etməlidir:

"Bizim də ondan xəbərimiz var. Sakinlərin də narahatçılığını bilirik. Amma bizim maliyyə gücümüz o qədər deyil ki, biz işi görək. Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısına müraciət olunub. Çox güman ki, yaxın zamanlarda öz həllini tapacaq".

14 mərtəbəli binanın digər bloklarının açıq qalmış pəncərələrinə imtahan öncəsi dəmir barmaqlıqların quraşdırılıb-quraşdırılmaması barədə Sumqayıt Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxladıq. İcra hakimiyyətinin mətbuat xidmətindən hafta.az-a bildirdilər ki, məsələdən xəbərləri var, yaxın zamanlarda həll olunacaq:

"Bu kimi işlər barədə şəhər rəhbərliyinə məlumat verilib, o da lazımi göstərişləri verib. Biz özümüzdə narahatıq ki, elə xoşagəlməz hadisələr baş verə bilər. Ona görə də sakinlərin də narahatlığını bilirik, nümayəndələrimiz də ərazidə olublar".

...Və önceki ildə intihar edən bir abituriyentin isə divara yazdığı yazı da hələ qalıb. Ümid edirik, bu il belə hallar baş verməyəcək.

✍ *Ruzbeh*

# Paytaxtın kənar küçələrində abadlıq-yenidənqurma işləri aparılır

**Ölkə başçısı İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıqlarına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətləri tərəfindən paytaxtın mərkəzi hissəsi ilə yanaşı şəhərin kənar ərazilərində, ikinci və üçüncü dərəcəli küçələrin də əsaslı təmir və yenidənqurulması aparılır.**



Artıq Xətai rayonu Məhəmməd Hadi küçəsində bu işlər başa çatdırılmışdır. Hazırda yeni, müasir layihə əsasında Nizami rayonu Qara Qarayev prospektində təmir-yenidənqurma işləri həyata keçirilir. Küçə boyunca yerləşən yaşayış binaları və digər tikintilərin fasadları şəhərsalma və memarlıq tələblərinə uyğun qaydada əsaslı təmir olunur, binalara müasir görkəm verilir, küçələr yenidən qurulur, küçələrə və səkilərə asfalt salınır, avtomobillərin maneəsiz hərəkətinin təmin eilməsi üçün müasir yol infrastrukturu yaradılır. Fövqəladə Hallar Nazirliyinin mütəxəssislərinin rəyinə əsasən binaların qarşısında və yanında vətəndaşların sərbəst keçidinə mane olan və təhlükə yaradan əlavə tikililər sökülür. Binaların birinci mərtəbəsində yerləşən mağaza, ictimai-iaşə obyektlərinin qarşısının da müasir dizaynla yenidən-qurulması aparılır. Yenidənqurma işlərində sahibkarlar da yaxından iştirak edərək, öz obyektlərinin daha yeni görünüş almasına çalışırlar. Eyni zamanda, küçə kənarında yeni yaşıllıqlar, qazon örtüyü salınır və yeni ağaclar əkilir. Yaşıllıqlara qulluq göstərilməsi üçün suvarma sistemi yaradılıb. Küçədə səki və keçidlərə dekorativ daş döşənir, küçə boyunca yeni müasir işıqlandırma sistemi qurulur, bir neçə yerdə yeni oturacaqlar, həmçinin idman qurğuları quraşdırılıb. Artıq bu küçədə aparılan abadlıq-quruculuq işlərinin sürəti daha da artırılmışdır.

✍ *Hafta.az*

# Bərdədə su kanalına atılan heyvan leşləri məhv edilib

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları 1003 - Çağrı Mərkəzinə daxil olan müraciət əsasında Bərdə rayonu, Alpoud kəndi ərazisindən keçən köməkçi su kanalına baxış keçiriblər.**



AQTA-dan hafta.az-a verilən məlumata görə, su kanalında tələf olan, sahibi məlum olmayan 13 baş iribuynuzlu heyvan aşkarlanıb. Heyvanların hansı səbəbdən tələf olduğunu müəyyən etmək məqsədilə daxili orqanlarından nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına göndərilib. Tələf olan heyvanlar Bərdə rayonu ərazisində Məişət Tullantıları Poliqonunda zərərsizləşdirilərək məhv edilib. Ərazidə aidiyyəti üzrə müvafiq qurumun əməkdaşları tərəfindən dezinfeksiya işləri aparılıb. AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlərini bundan sonra da davam etdirəcək və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısı qətiyyətlə alınacaq.

# Metroda polisə müqavimət göstərən 5 nəfər barəsində cinayət işi açılıb



**Bakı Metropolitenində xüsusi karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq onlara qarşı müqavimət göstərməyə cəhd edərək ictimai yerdə xuliqanlıq hərəkətlərinə yol verən Bakı şəhər sakinləri Tatyana Ulankina, Ramin Baxışov, Allahverdi İmanquliyev, Şirzad Şirzadov və Taleh Baxşıyev saxlanılıblar.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, faktla bağlı Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) və 221-ci (Xuliqanlıq) maddələri ilə cinayət işi başlanıb, zəruri istintaq və əməliyyat tədbirləri davam etdirilir.

# Aviaşirkətlər qiymətləri aşağı salır

**Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) yeni növ koronavirus (COVID-19) pandemiyası səbəbindən aviadaşımalara tələbatın kəskin azalmasından sonra ötən ay daxili sərnişin trafikinin dünya üzrə ortalama 30% artığını bildirir.**

IATA-nın baş iqtisadçısı Brayn Pirs qeyd edib ki, aviaşirkətlər COVID-19 pandemiyasının yaratdığı böhran üzündən maliyyə vəsaitinə ehtiyac duyurlar və aşağı tariflər təklif edərək sərnişinləri həvəsləndirməyə çalışırlar.



Avropada fəaliyyət göstərən "Wizz Air" və "Ryanair" aviaşirkətləri bazarın bərpası dövründə daha ucuz aviabiletlər və xidmətlər təklif edərək rəqabətdə qalib gəlmək niyyətindədirlər.

# Meyvə və tərəvəzləri qabıqlı şəkildə yemək daha faydalıdır



**Limon, portağal, alma və kartofu qabığı ilə yemək yaxşıdır. Meyvə və tərəvəzlərin qabıq hissəsi onun ləti ilə müqayisədə daha çox lif və vitamin ehtiva edir.** Məsələn, badımcan qabığı hüceyrələrin məhv olmasına və iltihablanmasına mane olan güclü antioksidantdır. Qabaq (kabaçok) qabığı antioksidant təsiri olan C vitamini və xlorofillə zəngindir. Rusiyalı proktoloq-onkoloq Yelena Smirnova bu sözləri "MedikForum" saytına müsahibəsində deyib. Onun fikrincə, çoxlu miqdarda C vitamini, lif və antioksidant ehtiva edən sitrus meyvələrinin qabığını yemək çox faydalıdır. Proktoloq-onkoloq xiyar və almanı qabığı ilə yeməyi də məsləhət görür. Brokkolinin tərkibindəki antioksidantlar isə stresin və göz hüceyrələrinin zədələnməsinin qarşısını alır. Həkim qeyd edib ki, kartofu qabığı ilə birlikdə yedikdə bədən daha çox C vitamini və liflə təmin olunur. Lakin yaşıl kartof qabığı ilə qidalandıqda onun tərkibində zəhərli soaanin birləşməsi də ola bilər. Rusiyalı həkim mövsümi meyvə və tərəvəzləri də qabıqlı şəkildə yeməyi məsləhət görüb.

# Bir dəfə də olsun, solo konsert verməmişəm

***Hafta.az kulis.az-a istinadla Nigar Camalla müsahibəni təqdim edir:***



***- İki aya yaxın ölkədə karantin rejimi elan olundu. Bu dövrü necə keçirtdiniz?***

- Yaxşı keçirdim. Karantin dövrünü, demək olar ki, bağda keçirdim. AzTV-də bilirsiniz ki, həftəsonu verilişimiz var. Çəkilişlərə getdim. Başımı qarışdırırdım. Sadəcə, uşaqlarım üçün darıxıram. Yollar bağlı olduğu üçün Londona qayıda bilmirəm. Görüntülü danışırıq, amma yenə də yanımda olmalarını çox istəyirəm.

***- Qızlarınızdan söz düşmüşkən, necə anadır Nigar Camal. Yaxşı ana olmaq üçün nə edirsiniz?***

- Əlimdən gələni edirəm. Mən, ümumiyyətlə, övladlarımla ana-qız yox, rəfiqəyəm. Özümü hər zaman onların yerinə qoyub, səhvlərini onların baxış bucağından dəyərləndirirəm. Hər zaman bu düşüncədəyəm ki, həyat onsuz da çox çətindir. Sabah nə olacağını bilmirik. Hər bir valideyn uşaqlarının güclü böyüməsi üçün çalışmalıdır. Bir də övladlarımın savadı, təhsili mənim üçün çox əhəmiyyətlidir. Onların təhsil alması həyatda bir peşəyə sahib olmaları üçün çalışıram.

***- Uzun illərdir Londonda yaşayırsınız. Sizi Azərbaycandan qoparan duyğularınız oldu, yoxsa bir çox insan kimi xarici ölkədə yaşamaq istəyi?***

- Artıq 15 ildir Londonda yaşayıram. Sevgi qopardı məni Azərbaycandan. Çox sevdim və sevgimin məni apardığı yerə getdim.

***- Həyatınızda "bu mənim üçün çox özəldir" dediyiniz anlar hansı anlardır?***

- Həyatımda mənim üçün özəl olan anlar çoxdur. Yəqin ki, ən özəli övladlarımın dünyaya gəldiyi anlardır. Həyatımda çətin anlar da çox olub. Gənc olanda çətinliklər adama aşılmaz görünsə də, yaş ötdükcə onlarla mübarizə aparmaq daha asan olur. İndi elə yaşdayam ki, çətinliyə yenilmirəm.

***- Deyirlər, insan aşiq olanda daha çox özü olur. Nigar Camal eşqi necə yaşayır?***

- Mən aşiq olanda çox xoşbəxt oluram. Ümumiyyətlə, sevgi mənim üçün hər şeydir. Bu dünyada məni nə ulduz həyatı, nə pul xoşbəxt edə bilir. Həyatımda sevgi olmayanda özümü çox bədbəxt hiss edirəm. Sevgi məni xoşbəxt edir.

***- Amma bir neçə il əvvəl müsahibələrinizin birində demisiniz ki, sevgi olanda işləmək çox çətin olur.***

- Mən həmişə düşünürdüm ulduz olsam, xoşbəxt olaram. Bir gündə məşhur oldum, amma hiss etdim ki, yox bu məni xoşbəxt etmir, həyatımda yenə də bir boşluq var.

***- İndi necə o boşluğu dolduran var?***

- Var. Amma evlilik haqqında hələ düşünmürəm. İkinci dəfə ərə getmək üçün tələsmək doğru deyil.

***- Sizi siz edən vərdişləriniz nələrdir?***

- Özüm kimi olmağım. Bir məsələnin çox dərinliyinə gedən adam deyiləm. Özümü mənfiyə kökləmirəm. Çox kədərli məqamda belə pozitivə kökləyə bilirəm özümü.

***- Nigar Camalın ideal kişi modeli necə olmalıdır?***

- Zarafat edən, pozitiv kişiləri sevirəm. Hər zaman bir yerdə oturan, danışmayan kişiləri sevmirəm. Kök və yekəqarın kişiləri sevirəm.

***- Nə zaman əsəbiləşirsiniz?***

- Ac olanda (gülür). Ümumiyyətlə, insanlar məni mənfi aura ilə yükləyəndə əsəbiləşirəm. Narahat edir bu məni.

***- Müğənni olmaq fürsətini yaxalaya bilməsəydiniz hansı peşəni seçərdiniz?***

- Mətbəxdə olmağı sevirəm. Yəqin aşpaz olardım (gülür)

***- Sözün hər iki mənasında əlinizin duzu var?***

- Mətbəxdə var, həyatda yoxdur. Ona görə də ətrafımda adam azdır. Sənət yoldaşlarımın çoxundan uzaq gəzirəm. Ən yaxın dostlarım Samir Cavadzadə, Eldar Qasımov və Ranar Musayev, Afaq Gəncəli, Oksana Rəsulovadır. Ürəyimə yatan və mənimlə eyni dəyərlərə sahib olan insanlarla dostluq edirəm. Əgər kimsə xoşuma gəlmirsə, onların xətrinə dəymədən uzaqlaşıram.

***- Mütailə ilə aranız necədir?***

- Uşaq vaxtı çox kitab oxuyurdum. Bizim ailəmizdə belə bir ənənə var idi. Anam bacım və mən oxumaq uğrunda rəqabətə girirdik. Mən detektiv kitablar oxumağı çox sevirdim. Aqata Kristinin bütün kitablarını demək olar ki, oxumuşam. Ən çox sevdiyim yazıçılar Aqata Kristi və Ceyms Hedli Çeyzdir.

***- Adı şou xəbərlərdə ən çox hallanan məşhurlardansınız. Şounun karyeranıza yaxşı və pis təsirləri varmı?***

- Bilirsiniz, bizdə sarı mətbuat daha üstündür. İnsanlar da sarı mətbuata meyllidir. Mən oturub bu saat ədəbiyyatdan, elmdən danışsam, bu heç kimə maraqlı olmayacaq. Amma mənim və digər həmkarlarımın həyatı ilə bağlı nə isə mənfi bir xəbər yazılanda hamı maraqlanır, girib baxır. Bu tək bizim bəlamız deyil. Qlobal bir bəladır. Sadəcə olaraq bizim mentalitetimizdə özünə xüsusi yer edən qeybət faktoru var ki, bu da prosesləri bir qədər məcrasından çıxarır. Media sənətçiləri doğru təqdim etmir bəzən. Sənətçinin çıxışlarını, sözlərini təhrif edirlər. İnsanların da mənfi tərəfi odur ki, ancaq başlığa baxırlar. Zəhmət çəkib məqalənin içini oxumurlar. Bu mənadan şounun sənətçinin karyerasına heç bir xeyri yoxdur. Şəxsən şou xəbərlərində adımın hallanmasının mənə ancaq ziyanı olur. Çünki mənim dil ilə bağlı ciddi problemim var. Fikirlərimi Azərbaycan dilində doğru ifadə edə bilmirəm. Bu yanlış anlaşılmalar da çox vaxt məni şou xəbərlərdə "manşet" edir.

***- Hədəfinizə çatmısınız?***

- Hələ istədiyimə çatmamışam. Solo konsert vermək istəyirəm. Artıq 10 ildir sənətdəyəm, hələ bir dəfə də olsun, solo konsert verməmişəm. Çünki istədiyim konserti həyata keçirmək üçün hər şey peşəkar olmalıdır. Səhnədə ancaq mahnı ifa etməklə kifayətlənən sənətçi deyiləm. O konsertdə rəqslər olmalıdır, möhtəşəm akustika, şou olmalıdır.

***- Londonda yaşayırsınız. İngiltərənin sənət aləminə daxil olmaq nə qədər mümkündür?***

- Mümkün deyil. İngiltərədə doğulsan, orda bir ömür keçirtsən də bu, mümkün deyil. Hətta çox tanınan bir müğənni olsan da oranın sənət mühitinə daxil olmaq fürsətini yaxalasan belə uzun müddət davam etmir. Uzağı bir il çəkir.

***- 90-lardan bu günə Azərbaycan pop musiqisi nə kimi dəyişikliyə məruz qalıb?***

- 90-cı illərlə müqayisədə 2000-ci illərdə yazılan və hit olan mahnılar daha səviyyəli mahnılar idi, mənə görə. Daha müasir, caz stlində idi. İndiki mahnılar üçün bunu deyə bilməyəcəm. Çünki qarışdırmışıq mahnıları. Daha çox türk və hind ritmləri üzərində yazılır mahnılar. Hind musiqilərinə Azərbaycan sözləri yazıb oxuyurlar. Azərbaycan pop musiqisi inkişaf edə bilmir.

***- Sosial şəbəkə sənətçilərin həyatına girəndən nə dəyişdi?***

- Sənətçilər adiləşdi. Əvvəllər müğənnilərin tamaşaçı üçün maraqlı, sirli tərəfləri var idi. İndi maraq qalmayıb. Müğənni daha əlçatandı. Kim istəsə girib müğənniyə yaxşı, yaxud da pis söz yaza bilir. Düşünürəm ki, belə olmamalıdır.

***- Məşhur olandan sonra nələrə diqqət etmək məcburiyyəti hiss edir adam?***

- Daha asta və ehtiyatlı olmaq. Danışdığın hər sözə diqqət etmək məcburiyyətindəsən. Çünki ağzından çıxan bir yanlış cümlə sənin hətta imicini zədələyə bilər. Məşhur olandan sonra insan daha səliqəli və nizam-intizamlı olmalıdır.

***- Mən sizin ifanızda daha çox xarici mahnılar dinləmişəm. Repertuarınızda Azərbaycan mahnıları varmı?***

- Var əlbəttə. Amma çox deyil. Azərbaycan dilində mənim stilimə, səs imkanlarıma uyğun yaxşı mahnı yazan bəstəkar tapa bilmirəm.

MƏDƏNİYYƏT

# "Açar" filminin tizeri təqdim olunub



**Qarabağ mövzusunda lentə alınan "Açar" filminin çəkilişləri artıq yekunlaşıb və tizeri (qısa videoxülasə) kinosevərlərə təqdim edilib.**

Film işğal olunmuş evinin sonuncu yadigarı və nişanəsi olan açarların itməsi ilə evinə qayıtmaqla bağlı son ümidini də itirən Ümid kişinin timsalında, dünyanın harasında yaşamasından asılı olmayaraq, doğma torpağı, evi zorla əlindən alınmış, həyatda yeganə istəyi öz evinə qayıtmaq olan insanın hekayəsidir...

"Epik Prodakşn" və "OB Film"in birgə istehsalı olan "Açar" qısametrajlı bədii filmi dram janrındadır. "Hadisə işğal altında qalmış evin açarının itməsi üzərində qurulub. Ailə bunu böyük faciə kimi qəbul edir, çünki bu açar onların ümididir. Evin açarı təkcə keçmişdən xatirə yox, həm də "Qapını bağlayıb gəlmişəm" kimi toxtaqlıqdır", – deyə filmin quruluşçu rejissoru Elşad Elsevər bildirib. Filmin bədii rəhbəri Yusif Şeyxov, ssenari müəllifi Elşad Elsevər, quruluşçu operatoru Cavid Delee, quruluşçu rəssamı Arif Niftiyevdir. Ekran əsərində Xalq artisti Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Zemfira Əbdülsəmədova, eləcə də Hüseyn İsgəndərov, Arif Kərimov, Rövşən Ağayev, Nəriman Qarayev, Ramiz Abbasov, Behbud Hacıyev, Eldar Cəbrayıl, Reyhan Cəfər, Selin Cəbrayıl, Emin İsgəndərov və başqaları çəkilib.

ŞOU-BİZNES

# Acun dəbdəbəli malikanənin sahibini açıqladı



**Türkiyəli aparıcı-prodüser Acun İlıcalı "Survivor 2020" yarışmasının iştirakçılarının dincəldiyi və "Dominikanın ən gözəl evi" adlandırdığı malikanənin sahibinin adını açıqlayıb.**

Hafta.az qafqazinfo-ya istinadən xəbər verir ki, Acun "Könüllülər" komandası ilə söhbəti əsasında villanın amerikalı reper Pitbulla (Armando Kristian Peres Akosta) məxsus olduğunu bildirib.

Qeyd edək ki, daha əvvəl malikanənin Mark Entoniyə aid olduğu iddia edilirdi.

# Tubanın əsərlərinə rekord sayda təklif gəldi

**Aktrisa Tuba Büyüküstün çəkdiyi rəsm əsərlərini "Youtube" kanalında paylaşandan sonra rekord təkliflər almağa başlayıb.** Hafta.az axşam.az-a istinadən bildirir ki, Şərq ölkələrində çox sayda fanatı olan sənətçi rəsmlərini hərraca çıxarmaq qərarına gəlib. Tuba gələn il böyük sərgi keçirməyi planlaşdırır. Hazlrda çox sayda təklif alsa da aktrisa rəsmlərini satmayacağını bildirib. O, hərracı sərgisində keçirəcəyini vurğulayıb.

İDMAN

# "Fənərbaxça"ya yoxlama görüşü üçün icazə verilməyib



**Koronavirus pandemiyası səbəbindən dayandırılan Türkiyə Super Liqasının bərpasına hazırlaşan "Fənərbaxça" klubu yoxlama görüşü keçirmək istəyib. İstanbul təmsilçisi bununla bağlı Türkiyə Futbol Federasiyasına (TFF) müraciət etsə də, mənfi cavab alıb.**

Klubdan verilən məlumatda federasiyanın koronavirusa qarşı alınan tədbirlər çərçivəsində buna razı olmadığı vurğulanıb. Bu üzdən "Fənərbaxça" öz heyətinin futbolçularının iştirakı ilə ikitərəfli oyun keçirməklə kifayətlənəcək. Qeyd edək ki, iyunun 12-də Türkiyə Super Liqasında XXVII tura start veriləcək.

# UEFA "Trabzonspor"u Avropa yarışlarından kənarlaşdırıb




**UEFA Türkiyənin "Trabzonspor" klubunu Avropa yarışlarından bir illik uzaqlaşdırıb. "Trabzonspor" maliyyə öhdəliklərinə əməl etmədiyinə görə bu cəzaya məruz qalıb.** UEFA-nın açıqlamasında bildirilir ki, 2019-cu ildə maliyyə sabitliyini təmin etmədiyinə görə "Trabzonspor"un 2020-2021 və 2021/2022 mövsümlərində Avropa kuboklarında iştirakı qadağan edilir. "Trabzonspor" UEFA-nın qərarından şikayət edəcəyini açıqlayıb.

# Koutinyo ilə bağlı qərar verildi

**Bayern Münich Filippe Koutinyo ilə yollarını ayırmağa qərar verib. Münhen təmsilçisi İspaniya nəhəngi "Barcelona"dan iyunun 30-na qədər icarəyə götürdüyü braziliyalı futbolçunun transfer hüququnu almayacaq.**

"Bild" qəzetinin yaydığı xəbərə görə, Bundesliqanın lideri 27 yaşlı futbolçunu yenidən icarəyə götürmək də istəmir. Bu isə onun yayda yenidən Barcelona-ya qayıdacağı anlamına gəlir.

Bayern-in prezidenti Karl Haynts Rummenigge bir müddət əvvəl Koutinyonun gələcəyi barədə danışarkən onun haqqında mövsüm bitəndən sonra qərar verəcəklərini bildirmişdi. Qeyd edək ki, Koutinyo cari mövsüm 8 qol və 6 məhsuldar ötürmə müəllifi olub.

# PSJ Hektor Belyerini transfer etmək istəyir




**Fransanın "Paris Sen-Jermen" futbol klubu İngiltərənin "Arsenal" komandasının müdafiəçisi Hektor Belyerini transfer etmək istəyir.**

Paris təmsilçisi bu transfer üçün London klubu ilə danışıqlara başlayıb. "Paris Sen-Jermen"in 25 yaşlı müdafiəçiyə görə "Arsenal"la 25 milyon avro qarşılığında razılığa gələcəyi gözlənilir. Qeyd edək ki, H.Belyerin cari mövsümdə London klubunun heyətində keçirdiyi 14 oyunda bir dəfə fərqlənib.

# "Azercell" uşaqlar üçün "Mobil TV" xidmətini istifadəyə verdi




**"Azercell" Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə yeni xidmət təqdim edib. "NNTV Mobil TV" xidmətində yeni "Kids" ("Uşaqlar") paketi istifadəyə verilib. Fakturalı və fakturasız xətt abunəçiləri tətbiqdə dünyanın ən sevilən və popyular uşaq TV proqramlarını izləyə biləcəklər.**

"NNTV Kids" paketində Disney, Boomerang, Cartoon Network, Nickelodeon HD, TRT Cocuk, Detskiy mir, Karusel, Discovery Channel HD kimi ən məşhur kanallara baxmaq olar.

Paketə daxil edilən kanalların müxtəlifliyi uşaqların həm əylənməsi, həm də maariflənməsinə imkan verir. "NNTV Kids"ə qoşulmaq üçün telefonun ekranında, sadəcə, *425#YES yığmaq və ya "K" açar sözünü 4040 qısa nömrəsinə göndərmək kifayətdir. Xidmətə birinci dəfə qoşulanlara ilk 7 gün pulsuz istifadə imkanı hədiyyə edilir.

Ətraflı məlumat və uşaq paketinə daxil olan kanalların siyahısı ilə tanış olmaq üçün 177 nömrəsinə zəng etmək olar. "Azercell"in "Mobil TV" xidməti abunəçilərinə istədikləri yerdə istədikləri zaman sevilən kanalları canlı olaraq izləmək imkanı verir. Qeyd edək ki, "İdman Paketini" də ayrıca təqdim edən NNTV tətbiqi 200-dən çox baxımlı telekanalı əhatə edir.

MARAQ

# Diri-diri torpağa basdırılan şəxs xilas ola bilib



**Hindistanda cinayətkarların diri-diri torpağa basdırdığı Qondal şəhərinin sakini Kapil Marakana qəbirdən çıxaraq xilas ola bilib.** Hafta.az AZƏRTAC-a istinadən bildirir ki, yerli polis orqanlarının məlumatına görə, sabiq sahibkar cinayətkar dəstəsi ilə birgə iflasa uğramasında günahkar bildiyi zərərçəkən şəxsi oğurlayaraq döyüb, sonra isə əllərini və ayaqların bağlayaraq torpağa basdırıb.

Kapil Marakana çabalaya-çabalaya torpağın altından çıxıb və yaxınlıqda yerləşən həbsxanaya gələrək hadisə barədə polisə məlumat verib. Hüquq-mühafizə orqanlarının apardığı əməliyyat nəticəsində cinayətkar həbs olunub.

ELAN

**Göyçay rayon Qaraxıdır kənd sakini Hacıyeva Tahirə Əli qızına verilmiş torpağın mülkiyyət hüququna dair JN-275 A nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**